RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 196 (9941) 14 sentyabr 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Yeni layihələr "Əsrin müqaviləsi"nin ömrünü uzadır

## 8 il əvvəl "Azəri-Çıraq-Günəşli"nin işlənməsi müddəti 2050-ci ilədək artırıldı

"Yeni əsrin müqaviləsi" ölkənin gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Sazişin bir hissəsi olaraq SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə yüksəldildi. Beynəlxalq tərəfdaş şirkətlər layihənin icrası dövründə ARDNF-yə (Azərbaycan Respublikası Dövlət Neft Fondu) 3,6 milyard dollar bonus ödəyəcəklər. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək. Bir vacib məqam da odur ki, tərəfdaşların tərkibində dəyişiklik olmadı. O cümlədən BP şirkəti layihənin operatoru olaraq qaldı. Bu da Prezident İlham Əliyevin yaratdığı möhkəm beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platformasının bir daha təsdiqidir.

8 il əvvəl yeni sazişin imzalanması mərasimində dövlətimizin başçısı demişdir: "1994-cü ildə kontrakt imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Ancaq bugünkü məlumat, - əminəm ki, bu, son məlumat deyil, ehtiyatlar daha da artacaq, - onu göstərir ki, hələ də "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı vardır. Yenə də qeyd etmək istəyirəm ki, bu, ilkin hesablamalardır. Əminəm ki, kontraktın icrası müddətində bu rəqəm daha da artacaq... O gündən 23 il keçir. Bu illər ərzində Azərbaycan sürətlə inkişaf etmişdir. Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur. Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, ölkəmizin böyük potensialı var. Son illər ərzində biz bu potensialı gücləndirmişik və bu potensialın inkişafında "Əsrin kontraktı"nın xüsusi rolu vardır".

"Yeni əsrin müqaviləsi" uğurla start götürdüyü kimi, beləcə də davam edir. Müqavilə çərçivəsində 6 milyard dollarlıq ACE layihəsi həyata keçirilir. 2019-cu ildə ümumi tikinti işləri başlandı. Dənizin təxminən 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yeni hasilat, qazma və yaşayış platforması quraşdırıldı. Göründüyü kimi, yeni "Azəri Mərkəzi Şərqi " platforması adını da öz yaxın qonşularından alıb.

ACE-nin dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) tikilmişdi. Blokun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Bu qurğunun tikinti işləri üç il çəkmiş və təhlükəsiz şəkildə, yəni heç bir bədbəxt hadisəyə yol verilmədən tamamlanmışdı.

3

## Müstəqil siyasət, iqtisadi güc, hərbi qüdrət



Azərbaycana rəhbərlik etdiyi 22 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, mövcudluğu tarixində ölkəmiz heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb.

Bu gün İlham Əliyev liderliyinə geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, ümumiyyətlə, dünya miqyasında tanınan, qlobal liderliyi etiraf olunan böyük şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud qlobal problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

4

## Çin-Azərbaycan: Fövqəldövlətin və regional liderin strateji tərəfdaşlığı



ÇXR-in Sədri Si Cinpin Azərbaycan Prezidenti İlham Əliyevə olan yüksək etimadını "Cənab Prezident Çin xalqının köhnə dostudur. Siz Çin-Azərbaycan münasibətlərinin inkişafı üçün daim səy göstərirsiniz" fikirləri ilə ifadə etmişdir.

Prezident İlham Əliyev də öz növbəsində cənab Si Cinpinin Azərbaycana olan xeyirxah münasibətinə yüksək qiymət verərək vurğulayıb: "Mən bilirəm ki, siz bizim ölkəmizə xoş münasibət bəsləyirsiniz. Azərbaycanda sizi çox yaxşı tanıyırlar, dünyamiqyaslı məsələlərdə oynadığınız rola, həmçinin Azərbaycana xeyirxah münasibətinizə görə Sizi yüksək dəyərləndirirlər".

Qeyd olunan bu reallıqlar fonunda ikitərəfli partiyalararası siyasi dialoq mühitinin inkişafı üçün olduqca münbit şərait yaranıb. Zəmanəmizin dühası Heydər Əliyevin "Dünənin, bu günün və gələcəyin partiyası", Prezident İlham Əliyevin "Ümumxalq partiyası" adlandırdığı Yeni Azərbaycan Partiyası (YAP) ilə ÇXR-in Sədri Si Cinpinin "Rəhbər siyasi qüvvə" kimi səciyyələndirdiyi Çin Kommunist Partiyası (ÇKP) arasında səmimi dostluq və etibarlı tərəfdaşlıq münasibətləri formalaşıb.

3

## Hər səhifəsi bir tarixdir



"Azərbaycan" qəzetinin ilk nömrəsi Gəncə şəhərində Yelizavetpol qubernatorunun mətbəəsində işıq üzü gördü. Qəzetin səhifələrinə göz gəzdirdiyi anda hər bir vətənpərvər oxucunun üzü güldü, qəlbi fərəhləndi. Çünki "Azərbaycan" qələbə müjdəsini verirdi: "Bakının süqutu. Dün gecə Azərbaycan Cümhuriyyəti Riyasəti namına Nuri Paşa həzrətləri tərəfindən böylə teleqraf keşidə edilmişdir: "Bismihil-kərim, Bakı şəhəri 15.9.34 saət 9 əvvəldə qitəatimiz tərəfindən zəbt olundu. Qafqaz İslam Ordusu komandanı Farik Nuri".

Yeni mətbu orqanın birinci nömrəsində həmin möhtəşəm günə həsr olunmuş xəbərlər, təbrik teleqramları verildi. Nuru Paşanın sentyabrın 15-də Gəncəyə göndərdiyi başqa bir teleqramda Azərbaycan hökuməti Bakıya dəvət edilirdi: "Gəncədə Azərbaycan Cümhuriyyəti Rəyasəti-Alisinə. Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərini ziyarət etmək üzrə Heyəti-Vükəlanın yarın Bakıya təşriflərinə müntəzirəm, əfəndim. 15.09.18. Yavərani-həzrəti-şəhriyaridən. Farik Nuru".

Azərbaycan Xalq Cümhuriyyəti Heyəti-Vükəla (Nazirlər Şurası) rəisi Fətəli xan Xoyskinin cavab teleqramında isə bildirilirdi: "Qafqaz İslam Ordusu komandanı səadətli Nuru Paşa həzrətlərinə. Təhti-komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşməndən xilas edildiyi münasibətilə millətin zati-həmiyyətpərvəranələrinizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğunu ərz etməklə iftixar edərim, əfəndim. Heyəti-Vükəla rəisi Fətəli xan".

6

## Tarixdə dönüş yaradan Zəfər

Bakı sentyabrın 15-də azad edildi. Sentyabrın 16-da Osmanlı-Azərbaycan hərbi hissələrinin Bakı ətrafında paradı keçirildi. Ertəsi gün isə Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Bu möhtəşəm qələbə Azərbaycan və türk qardaşlığının tərcümeyi-halına qızıl hərflərlə yazıldı.

Tarixdə dönüş yaradan türkün zəfəri, eyni zamanda ədaləti, sülhü bərqərar etməyin, dinc yaşamağın təntənəsi idi.

107 il bundan öncə Bakının erməni-bolşevik işğalçılarından azad edilməsi və Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı olması çox önəmli tarixi hadisə idi. Bakının işğaldan azad olunması cümhuriyyətin gələcəkdə de-fakto tanınması, müəyyən mənada de-yure təsdiqini tapması istiqamətində müstəsna hadisə sayılır. Paytaxtını xilas edən Xalq Cümhuriyyəti dünyada öz varlığını təsdiqlətdi. Bakının işğaldan azad edilməsi Azərbaycan və Osmanlı əsgərlərinin birgə səyi, Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun fədakarlığı nəticəsində mümkün oldu. Qafqaz İslam Ordusunun önəmli hissəsi yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin əsgərlərindən ibarət idi. Torpaqlarımızın, xüsusən Bakının işğaldan azad edilməsi həm də Azərbaycan-Türkiyə qardaşlığının təzahürü idi. Paytaxtımızın erməni-bolşevik daşnaklarından qurtuluşu yeni bir mərhələnin başlanğıcı oldu. Bu qələbə Qafqazın digər xalqları, Dağlılar Respublikası və digər türk-müsəlman toplumlar üçün böyük bir qurtuluş demək idi.



6

# İqtisadi Şuranın növbəti iclası keçirilib, bir sıra vacib məsələlər müzakirə olunub



İqtisadi Şuranın növbəti iclası keçirilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, sentyabrın 12-13-də Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin proqnoz layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, dünya iqtisadiyyatının inkişaf meyilləri, büdcə proqnozlarında istifadə olunan əsas fərziyyələr, cari iqtisadi vəziyyət və 2025-2029-cu illər üzrə yenilənmiş makroiqtisadi proqnozlar, 2026-2029-cu illərdə büdcə siyasətinin əsas məqsəd, istiqamət və hədəfləri, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası ilə bağlı xərclərin maliyyələşdirilməsi və Böyük qayıdış proqramının təmin edilməsi, Ortamüddətli Xərclər Çərçivəsi və nəticə əsaslı büdcə mexanizminin tətbiq olunduğu sahələr, büdcə qaydasının parametrləri üzrə hədəf göstəriciləri, makroiqtisadi və maliyyə sabitliyi sahəsində cari vəziyyət, siyasət istiqamətləri və digər məsələlər ətraflı müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun, maliyyə naziri Sahil Babayevin, Mərkəzi Bankın sədri Taleh Kazımovun və əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin məruzələri dinlənilib. Təqdim olunan gündəliyə dair İqtisadi Şuranın üzvləri tərəfindən müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şura üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla 2026-cı ilin büdcə zərfinə daxil olan bütün sənəd və məlumatların Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Azərbaycanın müdafiə naziri Pakistan tərəfinə başsağlığı verib

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirzaya başsağlığı ünvanlayıb.**



Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, başsağlığında deyilir: "Pakistanın şimal-qərb bölgəsində terrorçuların xaincəsinə hücumu nəticəsində Pakistan Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun şəhid olması və yaralanması barədə xəbər məni hədsiz kədərləndirdi.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və Allahdan səbir diləyirik. Yaralananların tezliklə sağalmalarını arzu edirik.

Allah rəhmət eləsin".

# "Sonsuz qardaşlıq - IV" çoxmillətli birgə xüsusi təyinatlı qüvvələr təlimi davam edir





**Ölkəmizdə Azərbaycan, Qazaxıstan, Qətər, Özbəkistan, Pakistan və Türkiyə xüsusi təyinatlılarının iştirakı ilə keçirilən "Sonsuz qardaşlıq - IV" çoxmillətli birgə təlimi davam edir. Bu barədə AZƏRTAC-a Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.**

Əsas diqqətin dost və müttəfiq ölkələrin xüsusi təyinatlı qüvvələri arasında birgə xüsusi əməliyyatların keçirilməsi sayəsində təcrübə mübadiləsinin aparılmasına, qarşılıqlı fəaliyyətlərin təşkili üzrə bacarıqların təkmilləşdirilməsinə, eləcə də zərurət yarandıqda birgə əməliyyatları aparma imkan və bacarıqlarının inkişaf etdirilməsinə yönəldildiyi təlimdə xüsusi təyinatlı bölmələr hazırlıqlarını davam etdirirlər. Birgə təlimdə atəş, paraşüt, snayper, eləcə də yaşayış məntəqəsinin düşməndən təmizlənməsi mövzularına dair təlim-döyüş tapşırıqları üzrə fəaliyyətlər uğurla yerinə yetirilir. Xüsusi təyinatlılar hazırlıq mərhələsində qarşıya qoyulan tapşırıqların icrası zamanı yüksək peşəkarlıq nümayiş etdirirlər.

# *Azərbaycanın MMA döyüşçüsü:* "Bayrağımızı beynəlxalq arenada qaldırdığım üçün qürur duyuram"

**"Ölkəmizin bayrağını beynəlxalq arenada qaldırdığım üçün özümlə fəxr edirəm".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Qazaxıstanın Çimkənd şəhərində keçirilən "Alash Pride FC 111" MMA turnirində qələbə qazanan Azərbaycan idmançısı Ruslan Tağıyev deyib. 77 kiloqram çəki dərəcəsində çıxış edən döyüşçü güclü rəqiblə qarşılaşdığını bildirib: "Tacikistanlı rəqibim Nurex Raxmonovun da mənim kimi karyerasında məğlubiyyəti olmamışdı. Ona görə mənim üçün çox çətin idi. Qalib gələcəyimə əmin deyildim. Bir qədər həyəcan da var idi. Şükürlər olsun ki, qələbə qazandım". "Neftçi" klubunun təmsilçisi qarşıdakı hədəflərindən də danışıb: "Növbəti döyüşüm noyabr ayında Avropada olacaq. Nəticənin necə olacağını indidən demək çətindir. Ümid edirəm ki, oradan da Vətənə qələbə ilə qayıdaram".

# Ankarada Qafqaz İslam Ordusu qəhrəmanlarının xatirəsi anılacaq

**Sentyabrın 18-də Ankara Ticarət Palatasının binasında Qafqaz İslam Ordusu əsgərlərinin xatirəsinə həsr olunmuş tədbir keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, "Qafqaz İslam Ordusu və Ənvər Paşa" adlı tədbir ölkəmizin Ankaradakı səfirliyi, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu (TADİV), Türk Dünyası Parlamentariləri Fondunun (TDPV) dəstəyi ilə keçiriləcək.

Giresun Universitetinin beynəlxalq əlaqələr kafedrasının professoru Yalçın Sarıkaya və başqaları anım tədbiri iştirakçılarına Bakını erməni- daşnak quldurları və bolşeviklərdən azad edən Qafqaz İslam Ordusunun rolu barədə məlumat verəcəklər. Tədbir çərçivəsində Qafqaz İslam Ordusuna həsr olunmuş fotosərgi təşkil olunacaq.




# Şamaxıda növbəti Üzüm və Şərab Festivalının açılışı olub









**Sentyabrın 13-də Şamaxıda Üzüm və Şərab Festivalı başlayıb. Şamaxı Rayon İcra Hakimiyyətinin, "Abqora" restoranı və "Nəsimi bağları" kompleksinin təşkilatçılığı ilə Şamaxı rayonunun Meysəri kəndində keçirilən festival iki gün davam edəcək.**







AZƏRTAC xəbər verir ki, festivalın açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, kənd təsərrüfatı naziri Məcnun Məmmədov və digər şəxslər iştirak ediblər.

Açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov deyib ki, üzümçülük və şərabçılığın Azərbaycanda, eləcə də Cənubi Qafqazda çox qədim tarixi var. Belə festivallar ənənələri yaşatmaqla yanaşı, ölkəmizdə üzümçülük və şərabçılığın inkişafına da təkan verir.

Festivalın əhəmiyyətindən danışan nazir təşkilatçılara minnətdarlığını bildirib. Qeyd edib ki, ötən il ölkəmizdə 12 milyon litr şərab istehsal olunub: "Bu istiqamətdə hələ görüləsi çox iş var. İnanıram ki, bu rəqəm ildən-ilə daha da artacaq və Azərbaycan şərabının tanınmasında belə festivallar mühüm rol oynayacaq".

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov bildirib ki, vaxtilə yalnız aqrar region kimi tanınan Şamaxı bu gün həm aqroturizm, həm də turizmin digər bütün istiqamətlərində inkişaf edir: "Rayonumuzda aparılan çox böyük quruculuq işlərinə, həmçinin inkişafa görə Prezidentimizə bütün əhalimiz adından dərin minnətdarlığımızı bildirirəm. Şamaxının poeziyasının, musiqisinin, xalçaçılığının, qədim tarixi abidələrinin turistlərə yüksək səviyyədə təqdim olunması üçün belə festivallar çox önəmlidir. Biz qarşıdakı illərdə də yeni layihələrlə sizin qarşınıza çıxacağıq".

Üzüm və Şərab Festivalı maraqlı-əyləncəli proqramla davam edir. Festivalın birinci günü xüsusi hazırlanmış şou ilə başlayıb.

Səhnəyə retro tərzdə sevilən mahnılar ifa edən "Retro Band" çıxıb. Azərbaycan cazının tanınmış ifaçılarından biri, beynəlxalq müsabiqələrin iştirakçısı Ülviyyə Rəhimova da Üzüm və Şərab Festivalının qonağı olub. Daha sonra populyar ifaları ilə sevilən Nigar Camal çıxış edib. Enerjisi və xarizması ilə seçilən kubalı müğənni, rəqqasə və xoreoqraf Edglis Hayle isə Latın Amerikası ritmləri ilə festival iştirakçılarını rəqsə dəvət edib.

Festivalın birinci günü səhnəyə çıxan növbəti musiqi iştirakçısı gənc bəstəkar və ifaçı Kazım Can olub. Simli alətlərdə ifa edən "The Passion band", "Qaya" Dövlət Ansamblının solisti Humay Aslanova, müğənni Diana Hacıyevanın rəhbəri olduğu "Dihaj" qrupu da festival iştirakçıları sırasında idi.

Rok və hip-hop üslubunda dinamik performansları ilə seçilən "Gaga band", xalq musiqisinin kökləri əsasında yaradılan enerjili trekləri ilə tanınan DJ Iradə və DJ Kamo, populyar müğənni Dilarə Kazımova da festivalın birinci günündə səhnəyə çıxıblar.

Qeyd edək ki, festivalın məqsədi yerli üzüm və şərab istehsalının təşviqi, şərab məhsullarının ixrac potensialının artırılması, Azərbaycanda üzümçülük və şərab istehsalı tarixinin və bu sahədə görülən işlərin geniş ictimaiyyətə çatdırılmasıdır. Builki festivalın proqramına da üzüm istehsalı və şərabçılıq, ölkənin turizm potensialı ilə bağlı müxtəlif maarifləndirici və əyləncəli tədbirlər daxildir.

Meysəri kəndindəki "Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksinin ərazisində təşkil olunan festivalda müxtəlif şərab brendləri iştirak edir.

Burada yerli və xarici istehsalçıların nümayiş etdirdikləri müxtəlif çeşidli şərab məhsullarının dequstasiyaları təşkil edilir, ziyarətçilər bəyəndikləri məhsulları ən sərfəli - zavod qiymətinə əldə etmək, ustad dərslərində iştirak etmək, şərab evlərinin maraqlı hekayələrini dinləmək imkanı qazanırlar.

Həmçinin festival ərazisində sərgi və məşhur restoranların pavilyonları quraşdırılıb. Ziyarətçilər üçün rəssamların üzümçülük mövzusunda əsərləri sərgilənir.

Festival ərazisində tələbələr tərəfindən Kənd Təsərrüfatı Nazirliyinin süni intellektlə bağlı təqdimatı olub.

Sentyabrın 14-ü də festivalın musiqi proqramı rəngarənglik vəd edir. Həmin gün açılışı müasir pop janrında çıxış edən, səsi və fərqli səhnə təqdimatı ilə seçilən gənc ifaçı Sevanna edəcək.

İstedadlı saksofonçu, "Suleymanbeyli Group" layihəsi ilə çıxış edən Teymur Süleymanbəyli və qrupun solisti Nəzrinin də ifaları unudulmaz anlarla yadda qalacaq.

İki dəfə "Eurovision"da çıxış edən, "The Voice Türkiye" yarışmasının qalibi Elnur Hüseynov, digər "Eurovision" təmsilçimiz, festivalın hər iki gününün qonağı Nigar Camal, populyar müğənni Samir Piriyev, Meksika və samba üslubunda musiqilər ifa edən "Mexican band", populyar estrada müğənnisi Nura Suri, Humay Aslanova, caz və xalq musiqisini birləşdirən ifaları ilə tanınan Xalq artisti Tünzalə Ağayeva, gənc DJ Kamo müxtəlif tamaşaçı zövqünə uyğun musiqiləri ilə festivalı daha ritmli və dinamik edəcəklər.

Ziyarətçilər üzüm istehsalı və şərabçılıq, Azərbaycanın turizm potensialı ilə daha yaxından tanış olmaq imkanı qazanmaqla yanaşı, müxtəlif oyunlara da qatıla biləcəklər.

Artıq dördüncü dəfədir keçirilən Üzüm və Şərab Festivalı şərab istehsalçılarına yeni işgüzar əlaqələr qurmaq, məhsullarını geniş auditoriyaya tanıtmaq üçün gözəl fürsətdir.




# 8 il əvvəl "Azəri-Çıraq-Günəşli"nin işlənməsi müddəti 2050-ci ilədək artırıldı

**"Azəri-Çıraq-Günəşli"(AÇG) "ailə"sinin hələlik "sonbeşiyi" olan "Azəri Mərkəzi Şərqi"(ACE) platforması keçən ilin aprelindən hasilata başlayıb. AÇG-nin bu ilin birinci yarısında verdiyi təxminən 59 milyon barel (gündə orta hesabla 327 min barel) neftdə ACE-nin də payı var. Belə ki, bu platformadan gündəlik 25 min barel neft hasil olunur.**

ACE platformasının təhlükəsiz şəkildə işə salınması və uğurla fəaliyyət göstərməsi 8 il əvvəv AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişinin müddətinin uzadılmasından sonra layihə tərəfdaşlarının qəbul etdiyi ilk böyük investisiya qərarının reallaşmasıdır. ACE sazişinin özü isə müəllifi Ümummilli Lider Heydər Əliyev olan yeni neft strategiyamızın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin və zamanın tələbləri baxımından inkişaf etdirilərək yeni nailiyyətlər qazanmasının daha bir göstəricisidir .

"Azəri-Çıraq-Günəşli"nin ACE-yə qədərki digər hasilat platformaları bunlardır: "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq". 2017-ci il sentyabrın 14-də ACE layihəsi ilə AÇG yataqlarının işlənməsində yeni dövr başlandı. Belə ki, AÇG-nin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişə düzəliş edildi və yenidən tərtib olunmuş sənəd imzalandı. Yeni saziş Milli Məclis tərəfindən həmin il oktyabrın 31-də ratifikasiya olundu.

Bu sazişi "Yeni əsrin müqaviləsi" də adlandırırlar. Çünki bununla nəhəng AÇG yataqlar blokunun işlənilməsinin müddəti 2050-ci ilin əvvəlinə qədər uzadıldı. Üstəlik də, saziş ölkəmiz üçün daha əlverişli şərtlərlə imzalandı. Baxmayaraq ki, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" də Azərbaycanın maraqlarını tam təmin edirdi.

"Yeni əsrin müqaviləsi" ölkənin gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Sazişin bir hissəsi olaraq SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə yüksəldildi. Beynəlxalq tərəfdaş şirkətlər layihənin icrası dövründə ARDNF-yə (Azərbaycan Respublikası Dövlət Neft Fondu) 3,6 milyard dollar bonus ödəyəcəklər. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək. Bir vacib məqam da odur ki, tərəfdaşların tərkibində dəyişiklik olmadı. O cümlədən BP şirkəti layihənin operatoru olaraq qaldı. Bu da Prezident İlham Əliyevin yaratdığı möhkəm beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platformasının bir daha təsdiqidir.

8 il əvvəl yeni sazişin imzalanması mərasimində dövlətimizin başçısı demişdir: "1994-cü ildə kontrakt imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Ancaq bugünkü məlumat, - əminəm ki, bu, son məlumat deyil, ehtiyatlar daha da artacaq, - onu göstərir ki, hələ də "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı vardır. Yenə də qeyd etmək istəyirəm ki, bu, ilkin hesablamalardır. Əminəm ki, kontraktın icrası müddətində bu rəqəm daha da artacaq... O gündən 23 il keçir. Bu illər ərzində Azərbaycan sürətlə inkişaf etmişdir. Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur. Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, ölkəmizin böyük potensialı var. Son illər ərzində biz bu potensialı gücləndirmişik və bu potensialın inkişafında "Əsrin kontraktı"nın xüsusi rolu vardır".

"Yeni əsrin müqaviləsi" uğurla start götürdüyü kimi, beləcə də davam edir. Müqavilə çərçivəsində 6 milyard dollarlıq ACE layihəsi həyata keçirilir. 2019-cu ildə ümumi tikinti işləri başlandı. Dənizin təxminən 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yeni hasilat, qazma və yaşayış platforması quraşdırıldı. Göründüyü kimi, yeni "Azəri Mərkəzi Şərqi " platforması adını da öz yaxın qonşularından alıb.

ACE-nin dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) tikilmişdi. Blokun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Bu qurğunun tikinti işləri üç il çəkmiş və təhlükəsiz şəkildə, yəni heç bir bədbəxt hadisəyə yol verilmədən tamamlanmışdı.

Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri isə Bibiheybətdəki tikinti-quraşdırma sahəsində aparılmışdı. Üst modullara neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların çəkisi 19 min 600 tondur. Bu qurğu "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilmişdi.

Xatırladaq ki, 2022-ci il dekabrın 13-də Prezident İlham Əliyev BDÖZ sahəsinə baş çəkərək dayaq blokunun dənizə yola salınması prosesinə xeyir-dua vermişdi.

BP bu qurğunun texnoloji və rəqəmsal baxımdan şirkətin dünyada ən qabaqcıl, həmçinin qurudan idarə etdiyi ilk platforması olduğunu bildirib. ACE gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neft hasil ediləcəyi proqnozlaşdırılır.

ACE-dən hasil olunan neft əvvəlcə platformadakı texniki emal qurğularından keçərək 30 düymlük mövcud sualtı ixrac boru kəmərinə qoşulmuş yeni yataqdaxili xətlə təxminən 130 kilometr yol qət edərək Səngəçal terminalına çatdırılır. Platformadan ilk neft 2023-cü ilin sonunda qazılmağa başlanmış birinci quyudan alınıb.

ACE platformasının uğurla işə salınmasını operator olan BP şirkəti SOCAR və Azərbaycan hökuməti ilə davamlı sıx əməkdaşlığın və tərəfdaşlarımızın əsl nümayişi kimi dəyərləndirir: "Bu nailiyyətin AÇG-nin 30-cu ildönümündə əldə olunması bu dünyamiqyaslı yatağın işlənməsinin növbəti mərhələsinin başlandığını bildirir. Biz artıq Xəzərdə doqquz dünyasəviyyəli hasilat platforması inşa etmişik, quraşdırmışıq və təhlükəsiz şəkildə idarə edirik. Bunların arasında ACE, həqiqətən də, öz mühəndislik kreativliyi, qabaqcıl rəqəmsal texnologiyası və avtomatlaşdırmalarına görə tam seçilir. Qürur duyuruq ki, "gələcəyin platforması" olduğuna inandığımız belə bir qurğunu uğurla ərsəyə gətirmişik".

***Flora SADIQLI, "Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Çin-Azərbaycan: Fövqəldövlətin və regional liderin strateji tərəfdaşlığı

**Çin Xalq Respublikası (ÇXR) təkcə böyük dövlət deyil, həm də nəhəng sivilizasiyadır. ÇXR artıq dünyanın ikinci iqtisadi və siyasi liderinə çevrilib. 2030-cu ilə qədər isə dünyanın birinci iqtisadiyyatı olmaq imkanı yüksək qiymətləndirilir.**

Bu dövlət 100 illik strateji niyyətini uğurla həyata keçirib, 2021-ci ildən rəsmən yoxsulluğun ləğvinə nail olaraq, orta zənginlikli cəmiyyət qurmağı bacarıb. 2049-cu ildə isə növbəti 100 illik məqsədinə çataraq müasir texnologiyalı birnömrəli modern dövlət quracağını hədəfləyib. Bu möhtəşəm uğurlar ardıcıl, sistemli və məntiqi dövlət siyasətinin həyata keçirilməsi nəticəsində mümkün olub.

XX əsrin 70-ci illərindən başlayaraq Çin Xalq Respublikası dərin iqtisadi islahatlar siyasətinə start verdi. Ölkənin inkişafı Den Syaopinin məlum "gücünü gizlət, məqamını gözlə" formulu əsasında gerçəkləşdirilməyə başladı. Ölkədə bütün proseslər davamlı iqtisadi artımın təmin edilməsi mənafeyinə xidmət göstərirdi.Təsadüfi deyil ki, keçən əsrin 90-cı illərində ÇXR-də sabit iqtisadi artım 10 faiz təşkil edirdi.

2008-2009-cu illərdə Qərbdə baş verən iqtisadi böhran ABŞ maliyyə sisteminin çöküşünə səbəb oldu və Vaşinqton konsensusunu tarixin arxivinə göndərdi. Çin üçün həqiqət anı və tarixi məqam yetişdi. 2009-cu ilin iyul ayında ÇXR-in həmin dövrdə Sədri olmuş Xu Çzintao çağırış etdi ki, ölkəsi beynəlxalq arenada öz gücünü və təsir imkanlarını maksimum genişləndirməlidir. 2013-cü ilin payızında isə ÇXR-in Sədri cənab Si Cinpin Avrasiyada qlobal quru və dəniz nəqliyyat dəhlizlərinin yaradılması ideyasını özündə ehtiva edən konkret layihələr irəli sürdü: İpək Yolu İqtisadi Kəməri və XXI əsr Dəniz İpək Yolu. Sonralar bu layihələr birləşdirildi və "Bir kəmər, bir yol" adı altında fəaliyyət göstərməyə başladı. Hazırda isə bu qlobal layihə "Kəmər və Yol Təşəbbüsü" adlandırılır. Atılan strateji əhəmiyyətli addımlar öz nəticəsini çox gözlətmədi. Çinin Milli Statistika Bürosunun (UİB) məlumatına görə, 2023-cü ildə ölkənin ümumi daxili məhsulu (ÜDM) 126,06 trilyon yuana (təxminən 17,71 trilyon dollara) bərabər oldu. Dünya iqtisadiyyatında Çinin payı 18,5 faizdir. Orta illik iqtisadi artım isə 7,2 faiz təşkil edir. Buğda istehsalında dünyada birinci yerdə olan Çin 1,4 milyardlıq əhalisinin ərzaq təhlükəsizliyini etibarlı şəkildə təmin edir. Çin polad əridilməsi, kömür hasilatı, sement, kimyəvi gübrə, televizor, habelə pambıq, bitki yağları və meyvə istehsalına görə də dünyada birinci yerdədir. Elektrik enerjisi, pambıq-parça məhsulları, ət və çay istehsalına görə isə ikinci yerdə bərqərar olmuşdur.

Yer kürəsinin bütün əhalisinin beşdəbirinə və işlək əhalisinin üçdəbirinə malik olan ÇXR sübut edib ki, vaxtilə geridə qalan dövlət həyati əhəmiyyətli sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı üzrə aparıcı mövqeyə çıxa bilər. Eyni fikirləri enerji təhlükəsizliyi ilə bağlı da söyləyə bilərik. Çin valyuta ehtiyatlarına görə dünyada liderdir. Ölkədə internet istifadəçilərinin sayı 1,03 milyard nəfərə çatıb. Bu faktın özü Çinin demokratik inkişafının mühüm göstəricisidir.

ÇXR 140-dan çox ökənin və regionun əsas iqtisadi-ticarət tərəfdaşıdır. Bu ölkələr arasında Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan Respublikasının xüsusi yeri və çəkisi vardır. Rəsmi Bakı-Pekin münasibətləri tarixi ənənə və müasir gesosiyasi reallıqlar fonunda dinamik inkişaf tempinə malikdir.



2500 il əvvəl tarixi "İpək yolu" vasitəsilə xalqlarımız arasında mədəni və ticari əlaqələr formalaşmışdır. Xalqlarımız arasında tarixi bağlılıq dahi Azərbaycan şairi Nizami Gəncəvinin XII əsrdə yazdığı əsərlərdə də öz əksini tapmışdır. Nəhəng söz ustası olan Nizami Gəncəvi Çin xalqına olan böyük hörmət və ehtiramını "Yeddi gözəl" poemasında "Çin gözəli"nin vəsfi ilə ifadə etmişdir.

İkitərəfli münasibətlərimizdə keyfiyyət dəyişikliyi Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra baş verdi. 1994-cü ilin mart ayında Ulu Öndər Heydər Əliyevin ÇXR-ə ilk rəsmi səfəri oldu. Səfər çərçivəsində ikitərəfli münasibətlərin mühüm hüquqi-normativ bazasını yaradan 8 müqavilə imzalandı.

Rəsmi Bakı-Pekin münasibətləri üçün xarakterik əməkdaşlıq və dostluq mühiti Prezident İlham Əliyev və ÇXR-in Sədri Si Cinpin tərəfindən daha da inkişaf etdirilərək Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin imzalanması ilə strateji tərəfdaşlıq səviyyəsinə qaldırılıb. Bu ilin 23 aprel tarixində Pekində Azərbaycan və Çin siyasi liderlərinin imzaladıqları "Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" sayəsində iki dövlət arasında münasibətlər keyfiyyətcə ən yüksək səviyyəyə qalxıb. Fundamental məsələlərdə hər iki dövlətin və onun liderlərinin mövqeyi tam üst-üstə düşür. Azərbaycan "Vahid Çin" ideyasını qəbul edir və onu həm ikitərəfli, həm də çoxtərəfli formatlarda tam dəstəkləyir. Azərbaycan Tayvan, Honkonq və Sincan-Uyğur Muxtar Rayonu məsələlərində Çinin mövqeyini müdafiə edir və Tayvanda keçirilmiş seçkiləri pisləyən ilk ölkələrdən biridir. ÇXR də Azərbaycanın ərazi bütövlüyü və suverenliyi məsələlərində anoloji mövqe ortaya qoyur, haqq işimizi hər yerdə və hər zaman dəstəkləyir. Yeri gəlmişkən, onu da qeyd edək ki, hər iki dövlətin liderləri arasında şəxsi dostluq münasibətlərinin olması faktı da dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin inkişafına təsir edən həlledici amillərdəndir.

ÇXR-in Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri xanım Lu Meyin haqlı olaraq qeyd etdiyi kimi: "Bu səfərdə bütün proseslərdə iştirak edərək ən çox hiss etdiyim odur ki, dövlət başçılarının diplomatiyası Çin-Azərbaycan münasibətlərinin inkişafında bir kompas və yüksələn ulduzdur". Fikirlərini davam etdirən xanım xüsusi olaraq vurğulayıb ki, Prezident İlham Əliyev Çinə artıq 7 dəfə səfər edib və Çin Xalq Respublikasının Sədri Si Cinpinlə 10-dan çox görüş keçirilib: "İki dövlət başçısı arasında yaxşı işgüzar əlaqələr qurulub və dərin şəxsi dostluq münasibətləri möhkəmləndirilib. Məhz dövlət başçılarının strateji rəhbərliyi altında Çin-Azərbaycan əlaqələri tarixdə ən yüksək səviyyəyə çatıb. Bununla da böyük və kiçik dövlətlər arasında bərabər münasibət və dostcasına əməkdaşlıq nümunəsi formalaşdırılıb".

Təsadüfi deyil ki, ÇXR-in Sədri Si Cinpin Azərbaycan Prezidenti İlham Əliyevə olan yüksək etimadını "Cənab Prezident Çin xalqının köhnə dostudur. Siz Çin-Azərbaycan münasibətlərinin inkişafı üçün daim səy göstərirsiniz" fikirləri ilə ifadə etmişdir.

Prezident İlham Əliyev də öz növbəsində cənab Si Cinpinin Azərbaycana olan xeyirxah münasibətinə yüksək qiymət verərək vurğulayıb: "Mən bilirəm ki, siz bizim ölkəmizə xoş münasibət bəsləyirsiniz. Azərbaycanda sizi çox yaxşı tanıyırlar, dünyamiqyaslı məsələlərdə oynadığınız rola, həmçinin Azərbaycana xeyirxah münasibətinizə görə Sizi yüksək dəyərləndirirlər".

Qeyd olunan bu reallıqlar fonunda ikitərəfli partiyalararası siyasi dialoq mühitinin inkişafı üçün olduqca münbit şərait yaranıb. Zəmanəmizin dühası Heydər Əliyevin "Dünənin, bu günün və gələcəyin partiyası", Prezident İlham Əliyevin "Ümumxalq partiyası" adlandırdığı Yeni Azərbaycan Partiyası (YAP) ilə ÇXR-in Sədri Si Cinpinin "Rəhbər siyasi qüvvə" kimi səciyyələndirdiyi Çin Kommunist Partiyası (ÇKP) arasında səmimi dostluq və etibarlı tərəfdaşlıq münasibətləri formalaşıb. ÇKP Mərkəzi Komitəsinin Avrasiya Departamentinin rəhbərliyinin 1999-cu il dekabrın 20-21-də Yeni Azərbaycan Partiyasının I qurultayında iştirak etmək üçün ölkəmizə səfəri ilə partiyalararası əməkdaşlıq əlaqələrinin əsası qoyulub.

İkitərəfli Azərbaycan-Çin əlaqələrinin inkişafında parlament diplomatiyasının da rolu kifayət qədər böyükdür. Qarşılıqlı olaraq hər iki dövlətin qanunvericilik orqanları arasında səmimi və işgüzar münasibətlər formalaşıb. Hər iki dövlətin parlamentlərində qarşılıqlı işçi qrupları fəaliyyət göstərir. Milli Məclisdə ayrı-ayrı ölkələrlə bağlı formalaşmış işçi qrupları arasında Azərbaycan-Çin işçi qrupu say tərkibi və funksionallığı baxımından ən böyük və fəallardan hesab olunur.

Milli Məclisin Sədri Sahibə Qafarovanın qeyd etdiyi kimi, "Ümummilli Lider Heydər Əliyevin 1994-cü ildə Çinə ilk rəsmi səfəri əlaqələrimizin təməlini qoyub. Prezident İlham Əliyevin Çinə səfərləri, Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşləri münasibətlərimizin inkişafına böyük stimul vermişdir. Qarşılıqlı səfərlər münasibətlərin daha da inkişafına töhfə verir. O cümlədən, parlamentlərimizdə fəaliyyət göstərən dostluq qrupları əlaqələrimizdə körpü rolunu oynayır. Həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində parlamentlərarası əlaqələrin genişləndirilməsi imkanları mövcuddur".

Qeyd edilən reallıqlar fonunda avqustun 27-dən sentyabrın 6-dək Azərbaycan-Çin Parlamentlərarası dostluq qrupunun üzvləri: Soltan Məmmədov (sədr), Elman Nəsirov, Afət Həsənova və Fatma Yıldırımdan ibarət parlament nümayəndə heyəti Çinə səfər etmiş və Pekin şəhərində inkişaf etməkdə olan ölkələrin parlamentlərinin 7-ci beynəlxalq seminarında iştirak etmişlər. Səfər çərçivəsində inkişaf etməkdə olan ölkələrin müasir beynəlxalq koordinatlar sistemində yeri və rolu, bu dövlətlərin Çinlə əməkdaşlığının əsas istiqamətləri və reallaşdırılma mexanizmləri, Qlobal Cənub və Qlobal Şimal arasında kəsişən və toqquşan maraqlar, inkişaf etməkdə olan ölkələrdə demokratiya və insan haqları, vətəndaş cəmiyyəti institutlarının inkişafı dinamikası, qadın və uşaq problemləri və s. məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı. Azərbaycan nümayəndə heyətinin üzvləri öz çıxışlarında rəsmi Bakı-Pekin münasibətlərinin geniş spektrinə dair məsələlər haqqında dolğun və ətraflı məlumat verdilər. Fundamental məsələlərdə hər iki dövlətin ortaq maraqlardan çıxış etdiyini vurğuladılar. Rəsmi Pekinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə etdiyini xatırladan azərbaycanlı deputatlar onu da xüsusi olaraq qeyd etdilər ki, rəsmi Bakı "vahid Çin" ideyasını birmənalı olaraq müdafiə edir. Azərbaycan Parlamentinin üzvləri onu da qeyd etdilər ki, iki dövlət arasında olduqca münbit siyasi dialoq mühiti formalaşıb. Məhz bu reallıq fonunda avqust ayının 30-dan başlayaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri başlamışdır. Dövlətimizin başçısı sentyabrın 1-də Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında görüşdə iştirak və çıxış edib. Cənab Prezident Azərbaycan-Çin münasibətlərinin strateji xarakter kəsb etdiyinə diqqəti cəlb edərək vuğulayıb ki, Azərbaycan beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi məqsədilə Çin tərəfindən irəli sürülmüş Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləmişdir. Biz, həmçinin Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəetmə Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış bir addım kimi alqışlayırıq.

Çin Xalq Respublikasının Sədri Si Cinpin ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığını, energetika, o cümlədən bərpaolunan enerji, rəqəmsallaşma sahələrində əməkdaşlığın genişləndiyini vurğulayıb. Cənab Si Cinpin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində də Azərbaycan-Çin əməkdaşlığının möhkəmləndiyini deyərək, Azərbaycan ərazisindən Çin mallarının daşınmasının əhəmiyyətini qeyd edib, bu xüsusda Trans-Xəzər marşrutunun önəminə toxunub.

Onu da qeyd edək ki, sentyabrın 3-də Çinin paytaxtı Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış qələbənin 80-ci ildönümünə həsr olunmuş parad keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paradı izləmək üçün Çinin paytaxtı Pekindəki Tiananmen meydanına gəliblər.

Azərbaycan parlament nümayəndə heyəti isə sentyabrın 1-də Pekində inkişaf etməkdə olan ölkələrin parlamentlərinin 7-ci beynəlxalq seminarında iştiraklarını yekunlaşdıraraq sentyabrın 6-dək Çzilin əyalətinin Çançun və Şandun əyalətinin Çzinan, Dunin və Veyfan şəhərlərinə səfərlər ediblər. Bu səfərlər çərçivəsində əyalətlərin partiya rəhbərləri ilə görüşlər keçirilib, sözügedən bölgələrin yüksəktexnologiyalı müəssisələri və inkişaf etmiş kənd təsərrüfatı sahələri ilə tanışlıq baş tutub. Çinin qeyd edilən sahələr üzrə müasir və sürətli inkişaf dinamikası və topladıqları böyük təcrübə geniş maraq doğurub. Bütün bu qazanılan böyük uğurlar iqtisadi inkişafın "Çin möcüzəsi" kimi xarakterizə olunur və heyranlıq hissi doğurur.

Beləliklə, dünyanın fövqəldövlətlərindən biri olan ÇXR ilə regional güc mərkəzinə çevrilmiş Azərbaycan Respublikası arasında formalaşmış yüksəksəviyyəli münasibətlərin yuxarıda təqdim olunan qısa analizi bir daha təsdiqləyir ki, siyasi liderlərimizin, xalqlarımızın, dövlətlərimizin, parlamentlərimizin və hakim siyasi partiyalarımızın dostluğu və qardaşlığı qazandığımız və hədəflədiyimiz bütün uğurlarımızın kökündə dayanan fundamental səbəblərdir. Çoxşaxəli lokal, regional və qlobal təhlükəsizlik mühitinin möhkəmlənməsi, xalqlarımızın rifahı və tərəqqisi mənafeyi Azərbaycan-Çin strateji tərəfdaşlığının daha uğurlu perspektivlərini labüd edir. Bu, zamanın çağırışıdır.

***Elman NƏSİROV, Milli Məclisin deputatı***

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider




## Müstəqil siyasət, iqtisadi güc, hərbi qüdrət

### Azərbaycan yalnız Cənubi Qafqazın deyil, Avrasiyanın mühüm aktorlarından biri kimi qəbul olunur

**Son illərdə Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu və regional gücə çevrilməsi dünya ictimaiyyətinin diqqətindən yayınmır. Strateji mövqeyi, enerji siyasəti, uğurlu diplomatik addımları və hərbi potensialı sayəsində Azərbaycan artıq yalnız Cənubi Qafqazın deyil, Avrasiyanın mühüm aktorlarndan biri kimi qəbul olunur.**

Dövlətin iqtisadi siyasəti, maliyyə sabitliyi və valyuta ehtiyatlarının artması Azərbaycanın iqtisadi qüdrətini gücləndirib. Neftdənkənar sektorun inkişafı, kənd təsərrüfatı və turizmin dirçəlməsi ölkənin iqtisadiyyatını daha dayanıqlı edir.

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda nəqliyyat və enerji əlaqələrinin bərpası Azərbaycanın regional geosiyasi mövqeyini daha da gücləndirib. Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycanın enerji infrastrukturunun təhlükəsizliyini təmin edib. Bu gün Azərbaycan imkanlarını daha da genişləndirərək Avropa ilə Asiya arasında etibarlı tranzit habına çevrilməkdədir. Yəni Mərkəzi Asiya dövlətləri üçün Azərbaycan "Şərq-Qərb" marşrutu üzrə etibarlı tranzit ölkədir.

Ümumiyyətlə, Azərbaycanın bugünkü reallıqlarına nəzər salanda görürük ki, ölkəmiz, sözün əsl mənasında müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tutub. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf amilinə çevrilib.

Prezident İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərir. Azərbaycan Prezidenti hər zaman qlobal liderlik keyfiyyətini və təşəbbüskarlığını ortaya qoyaraq çox mühüm ideyalar irəli sürür və bu gün də onun təşəbbüsü ilə reallaşan transmilli layihələr ölkəmizə iqtisadi-siyasi dividendlər qazandırır. Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artmasına böyük təsir göstərməklə yanaşı, İlham Əliyevin də dünyada şəxsi nüfuzunun artmasına gətirib çıxarıb.

Azərbaycanın enerji siyasəti ölkəyə həm regional, həm də beynəlxalq səviyyədə siyasi güc qazandırır. Həmçinin Azərbaycanın müstəqil və balanslaşdırılmış xarici siyasət yürütməsinə şərait yaradır, Avropanın enerji təhlükəsizliyində əsas oyunçu kimi yer almasına imkan verir, eyni zamanda Avrasiyada effektiv əməkdaşlıq və rəqabət əlaqələrinin qurulmasına səbəb olur.

Coğrafi və geosiyasi baxımdan mühüm bir mövqedə yerləşən Azərbaycan həm Avropa, həm də Mərkəzi Asiya istiqamətində fəal və balanslaşdırılmış xarici siyasət yürüdür. Bu siyasət bir neçə əsas istiqamətdə özünü göstərir - Azərbaycan Avropa İttifaqı ilə "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində fəal iştirak edir. Enerji sahəsində strateji tərəfdaşdır - xüsusilə "Cənub qaz dəhlizi" vasitəsilə Avropanın enerji təhlükəsizliyinə töhfə verir. Bir sıra Avropa ölkələri ilə siyasi, iqtisadi və mədəni əlaqələr inkişaf etdirilir.

Azərbaycanın BMT, ATƏT, Qoşulmama Hərəkatı, Şanxay Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlarda fəal iştirakı onun qlobal siyasətdəki rolunu artırır. Azərbaycanın bu təşkilatlarda mövqeyi onun həm regional, həm də qlobal məsələlərə təsir göstərən bir ölkə olduğunu göstərir.

Azərbaycanın qlobal mövqeyi onun enerji siyasəti, diplomatik əlaqələri, regional gücü və beynəlxalq təsiri ilə möhkəmlənir. Bu həm Azərbaycanın iqtisadi və siyasi gücünü artırır, həm də onu dünya miqyasında mühüm bir oyunçuya çevirir.

Azərbaycana rəhbərlik etdiyi 22 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, mövcudluğu tarixində ölkəmiz heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb.

Bu gün İlham Əliyev liderliyinə geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, ümumiyyətlə, dünya miqyasında tanınan, qlobal liderliyi etiraf olunan böyük şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud qlobal problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

Hazırda Azərbaycan böyük layihələrin təşəbbüskarı və iştirakçısı qismində regional əməkdaşlığı inkişaf etdirən və beynəlxalq nüfuza malik dövlətdir. Etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanın xarici siyasət uğurları qonşu ölkələrlə və dünyanın digər dövlətləri ilə balanslaşdırılmış münasibətlərin qurulmasına, qarşılıqlı maraqlardan irəli gələn bərabər dialoq və əməkdaşlığın həyata keçirilməsinə əsaslanır. Regionun lider dövləti olan Azərbaycan bu gün dünya miqyasında sözünü deyən ölkələrdən biridir. Dünyanın kosmik ölkələr ailəsinin üzvü olan Azərbaycanın bu gün orbitdə 3 peyki mövcuddur.

Qafqazda ən güclü orduya malik ölkə olan Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra da Silahlı Qüvvələrinin daha da modernləşməsi istiqamətində mühüm addımlar atır. Ordumuzun maddi-texniki bazası daha da modernləşir, istehsal edilən yerli və xaricdən alınan hərbi texnikalar, silahlar isə Silahlı Qüvvələrimizin gücünə güc qatır.

Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Silahlı Qüvvələrini dünyanın ən güclü 50 ordusu sırasına yüksəldib.

Tarixinin ən qüdrətli Azərbaycanı İkinci Qarabağ müharibəsində öz hərbi gücünü dünyaya nümayiş etdirərək silahlı qüvvələrinin potensialını, nəyə qadir olduğunu göstərmiş oldu. Bəşər tarixində ilk "smart müharibə" aparan dövlət kimi dünya hərb salnaməsinə adını yazdıran Azərbaycan bu gün də silahlı qüvvələrinin gücünə güc qatmaqdadır.

Müharibədən ötən müddət ərzində aparılan islahatlar və yeni silahlı birləşmələrin yaradılması, silahlar və müasir texnika ilə təchiat, ən nahayət hərbi təlimlər ordumuzun döyüş qabiliyyətini daha da yüksəltməkdədir.

Ümumiyyətlə, peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir. Bunun üçün uzun illər, bəzən onilliklər tələb olunur. Zamanın reallıqları təsdiq edir ki, modernləşmə ən vasib şərtlərdən biridir.

İlham Əliyevin həyata keçirdiyi islahatlar onu deməyə əsas verir ki, bu gün Silahlı Qüvvələrimiz vahid proqram əsasında inkişaf etdirilir. Prezidentin söylədiyi kimi, görülən işlərə, aparılan islahatların real nəticəsinə əsasən deyə bilərik ki, hazırda Azərbaycan Silahl Qüvvələri müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Ordumuzdan daha da güclüdür. Yəni Cənubi Qazqazda ən güclü Zəfər Ordusu Azərbayana məxsusdur.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycanın uğurlu siyasəti Qlobal Cənub üçün yeni imkanlar açır

**Azərbaycan 2020-ci il Vətən müharibəsində əldə etdiyi qələbə ilə Cənubi Qafqazda yeni geosiyasi reallıqlar formalaşdırıb. Tarixi Zəfərimizdən üç il sonra Rəşadətli Ordumuzun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində ərazilərimiz separatçılardan təmizləndi, suverenliyimiz tam bərpa edildi. Dövlətimizin yaratdığı bu reallıqlar beynəlxalq hüququn prinsiplərinə əsaslanaraq regionda sülhün qurulması üçün yeni əsaslar formalaşdırdı.**



Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, 2022-ci ilin əvvəlində sülh müqaviləsinin əsasını təşkil edən 5 əsas prinsip Azərbaycan tərəfindən Ermənistana təqdim edilib. Lakin Ermənistan qeyri-səmimiliyi, Bayden-Blinken Administrasiyasının qərəzli mövqeləri sülh müqaviləsinin mətnini razılaşdırmağa imkan verməyib. "Yalnız bir sutkadan az davam edən lokal xarakterli antiterror tədbirlərindən sonra Ermənistanla Azərbaycan arasında həqiqi danışıqlar başladı və 2025-ci ilin mart ayında sülh müqaviləsi üzrə danışıqlar yekunlaşdı. Bu baxımdan Azərbaycan Prezidentinin ABŞ-yə səfəri, həmçinin Azərbaycan-Ermənistan normallaşma prosesi kontekstində mühüm nəticələr ilə əlamətdar oldu. Səfər zamanı Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin sammiti keçirildi və bu görüşün nəticəsində Birgə Bəyannamə imzalandı. Bununla yanaşı, hər iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflandı və ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubu imzalandı. Bu müraciətə uyğun olaraq 2025-ci il sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Vaşinqtonda paraflanmış sənəd Ermənistan-Azərbaycan münasibətlərinin dövlətlərarası çərçivədə necə qurulmalı olduğu barədə Azərbaycanın baxışına əsaslanır. Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması Azərbaycanın irəli sürdüyü sülh gündəliyini təsdiq etdi. "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində, sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edildi. Bu kontekstdə, Azərbaycan tərəfi sazişin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilərək ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılacağını gözləyir. Yəni yekun sülh sazişinin imzalanması üçün əsas tələblərdən biri - Ermənistan konstitusiyasının dəyişdirilməsinin zəruriliyi təsdiq olunub. Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəliş də təsdiq olunub.

V.Rəhimzadə vurğulayıb ki, qalib Azərbaycanın həyata keçirdiyi uğurlu və milli maraqlara əsaslanan siyasət həm Cənubi Qafqaz regionu, həm də daha geniş mənada Qlobal Cənub üçün tamamilə yeni imkanlar açır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Daily Finland" qəzetində Cənubi Qafqazda sülh prosesinə dair məqalə dərc olunub

**Finlandiyanın ingilisdilli "Daily Finland" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Zaur Əhmədovun məqaləsi dərc olunub. Məqalə Finlandiyanın ATƏT-ə sədrliyi ilə Cənubi Qafqazda baş verən tarixi sülh hadisələrinin üst-üstə düşməsinə həsr edilib.**




AZƏRTAC xəbər verir ki, materialda avqust ayında Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Birgə Bəyannamənin imzalanmasından bəhs olunur. Eyni zamanda xarici işlər nazirləri sülh sazişini paraflayıb və Minsk prosesinin bağlanması ilə bağlı ATƏT-ə müraciət ediblər. 2025-ci il sentyabrın 1-dən qüvvəyə minmiş bu qərar 1975-ci il Helsinki Yekun Aktının prinsiplərini vurğulayan mühüm addım olub.

Məqalədə xüsusi olaraq Azərbaycanı Ermənistan ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsini nəzərdə tutan yeni nəqliyyat dəhlizi olan TRIPP layihəsinə diqqət yetirilir. Bu marşrut Avropanı, Qafqazı, Mərkəzi Asiyanı və Çini birləşdirən Orta dəhlizin bir hissəsi olacaq.

Finlandiyaya bu istiqamət artıq tanışdır. "Nurminen Logistics" şirkəti Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunda aktiv fəaliyyət göstərir və onun inkişafına töhfə verib. TRIPP marşrutu istifadəyə verildikdən sonra dəhlizin ümumi buraxılış qabiliyyəti artacaq, bu da daha sürətli və təhlükəsiz logistika hesabına fin şirkətləri üçün yeni imkanlar yaradacaq.

Səfir vurğulayıb ki, Cənubi Qafqaz yeni əməkdaşlıq modelləri axtaracaq və bu məsələdə Skandinaviya regional inteqrasiya təcrübəsi nümunə ola bilər. Etimad və praqmatizmə əsaslanan Skandinaviya modeli keçmiş rəqiblərin qarşıdurmanı tərəfdaşlığa çevirə biləcəklərinin mümkünlüyünü göstərir.

Z.Əhmədovun fikrincə, sülh prosesi Finlandiya üçün də mühüm əhəmiyyət daşıyır. Birincisi, o, Avropanın şərq qonşuluğunda sabitliyi təmin edir ki, bu da birbaşa olaraq avropalıların gündəlik həyatına təsir göstərir.

İkincisi, TRIPP layihəsinin işə düşməsi və Orta dəhlizin güclənməsi ilə fin ixracatçıları Asiyaya daha şaxələndirilmiş marşrutlara çıxış əldə edəcəklər. Bu isə yeni bazarlar, daha qısa, təhlükəsiz və ekoloji cəhətdən təmiz nəqliyyat əlaqələri deməkdir.

Üçüncüsü, sülh prosesi Ermənistanın konstitusiyasına dəyişiklik etməsini - Azərbaycana qarşı bütün ərazi iddialarının çıxarılmasını tələb edir. Bu addım beynəlxalq hüququn tam tanınması və hörmət edilməsinə, Avropa dəyərlərinə uyğun hərəkətə işarədir - elə bir vaxtda ki, dünyanın müxtəlif yerlərində ərazi bütövlüyü ciddi şəkildə mübahisələndirilir.

## *Hakan FİDAN:* "Şülh sazişinə son imzalar atıldıqdan sonra Türkiyə ilə Ermənistan arasındakı normallaşma sürətlənəcək"



**"Ermənistanla Azərbaycan arasındakı Şülh sazişinə son imzalar atıldıqdan dərhal sonra Türkiyə ilə Ermənistan arasındakı normallaşma sürətli şəkildə həyata keçiriləcək".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Hakan Fodan İtaliyanın Beynəlxalq Münasibətlər İnstitutunda (IAI) keçirilən konfransda ifadə edib.

Fidan Qarabağda işğal altındakı ərazilərin azad edilməsindən sonra Ermənistanın Baş naziri Nikol Paşinyanın sülh və Azərbaycanla münasibətlər baxımından tarixi addım atdığını, bunun üçün onu təqdir etdiyini bildirib.

Bu prosesə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edən diplomat ABŞ Prezidenti Donald Trampın da Vaşinqtonda tarixi anlaşmanı möhkəmləndirdiyini deyib.

Fidan yekun imzaların gələn ilin ilk yarısında atılacağını gözlənildiyini deyib.

## Mariya Zaxarova Ermənistan-Azərbaycan normallaşma prosesini sürətləndirməyin zəruriliyini bəyan edib

**Rusiya Ermənistan-Azərbaycan münasibətlərində əldə olunan tərəqqini alqışlayır.**



AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə bildirib.

O deyib: "Bununla belə, Bakı və İrəvanın qarşısında qalan fikir ayrılıqlarını aradan qaldırmaq, xüsusən də ədalətli əsaslarla sülh sazişi imzalamaq, sərhədin delimitasiyası və demarkasiyasını başa çatdırmaq, nəqliyyat kommunikasiyalarını açmaq, bütün bunları hər iki ölkənin, həmçinin regionun ən böyük siyasi və iqtisadi qonşuları olan Rusiya, İran, Türkiyə kimi dövlətlərin maraqlarına uyğun şəkildə etməklə bağlı görüləcək çox iş var.

M.Zaxarova vurğulayıb ki, "3+3" regional əməkdaşlıq platforması Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələlərinin və Cənubi Qafqazın digər aktual mövzularının müzakirəsi üçün yaxşı vasitədir. Bu platformaya Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya, İran və Türkiyə daxildir.

Rusiya XİN-in nümayəndəsinin sözlərinə görə, Moskva azərbaycanlı və erməni həmkarlarından bu platformanın üzvü olan ölkələrin xarici siyasət idarələrinin növbəti iclasının yeri və tarixlərinin tezliklə razılaşdırılması üzrə fəal addımlar gözləyir. O, uğur əldə etmək üçün Rusiyanın tərəfdaşlarına lazımi köməklik göstərməyə hazır olduğunu təsdiqləyib.

# "AZƏRBAYCAN" - 107

**"Azərbaycan" qəzeti tarix yazıb. Çünki olduqca mürəkkəb, qarışıq bir zamanda qurulmuş müstəqil cümhuriyyət hökumətinin çətin, mücadilələrlə, mübarizələrlə dolu yoluna yoldaş idi. Azərbaycan Xalq Cümhuriyyətinin birinci rəsmi qəzeti kimi fəaliyyət göstərmək ona nəsib olub. Həmyaşıd deyildilər. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-də Tiflisdə qurulmuşdu. "Azərbaycan" qəzeti isə cümhuriyyət hökumətinin Gəncə dövründə fəaliyyətə başladı.**




# Hər səhifəsi bir tarixdir




## Müjdə ilə açılan səhər

Qəzetin, necə deyərlər, ayağı sayalı oldu. Nəşrinin ilk günü - 1918-ci il sentyabrın 15-də Azərbaycan tarixinin ən şanlı, qələbə sevincli günlərindən biri oldu. Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu və milli hərbi hissələrimiz tərəfindən bolşevik-daşnak birləşmələrindən ibarət qoşun məğlubiyyətə uğradıldı, Azərbaycanın paytaxtı azad edildi. Xəbər verildi ki, Bakı işğaldan azad edildi, şəhərdə sakitlik bərqərar olundu. Beləliklə, milli hökumət ilk başlıca vəzifəsini yerinə yetirdi. Qarşıda isə hələ çox böyük, təxirəsalınmaz vəzifələr, mühüm işlər vardı...

"Azərbaycan" qəzetinin ilk nömrəsi Gəncə şəhərində Yelizavetpol qubernatorunun mətbəəsində işıq üzü gördü. Qəzetin səhifələrinə göz gəzdirdiyi anda hər bir vətənpərvər oxucunun üzü güldü, qəlbi fərəhləndi. Çünki "Azərbaycan" qələbə müjdəsini verirdi: "Bakının süqutu. Dün gecə Azərbaycan Cümhuriyyəti Riyasəti namına Nuri Paşa həzrətləri tərəfindən böylə teleqraf keşidə edilmişdir: "Bismihil-kərim, Bakı şəhəri 15.9.34 saət 9 əvvəldə qitəatimiz tərəfindən zəbt olundu. Qafqaz İslam Ordusu komandanı Farik Nuri".

Yeni mətbu orqanın birinci nömrəsində həmin möhtəşəm günə həsr olunmuş xəbərlər, təbrik teleqramları verildi. Nuru Paşanın sentyabrın 15-də Gəncəyə göndərdiyi başqa bir teleqramda Azərbaycan hökuməti Bakıya dəvət edilirdi: "Gəncədə Azərbaycan Cümhuriyyəti Rəyasəti-Alisinə. Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərini ziyarət etmək üzrə Heyəti-Vükəlanın yarın Bakıya təşriflərinə müntəzirəm, əfəndim. 15.09.18. Yavərani-həzrəti-şəhriyaridən. Farik-Nuru".

Azərbaycan Xalq Cümhuriyyəti Heyəti-Vükəla (Nazirlər Şurası) rəisi Fətəli xan Xoyskinin cavab teleqramında isə bildirilirdi: "Qafqaz İslam Ordusu komandanı səadətli Nuru Paşa həzrətlərinə. Təhti-komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşməndən xilas edildiyi münasibətilə millətin zati-həmiyyətpərvəranələrinizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğunu ərz etməklə iftixar edərim, əfəndim. Heyəti-Vükəla rəisi Fətəli xan".

## Gəncədən Bakıya...

"Azərbaycan" ilk addımını asanlıqla atmamışdı. Mürəttib çatışmazlığı, kağız və şrift qıtlığı ilə bağlı çətinliklərin həlli, dərc ediləcək materialların toplanması xeyli zəhmət tələb etdi. Ancaq yaradıcı heyət böyük səylə, əzmkarlıqla bu işlərin öhdəsindən gəldi.

Qəzetin ilk nömrəsi A-3 formatda, dörd səhifə həcmində, iki dildə nəşr olundu. İki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində oldu. Rusca nəşri xırda istisnalarla Azərbaycanın tərcüməsi idi.

"Azərbaycan" qəzeti redaksiyasının ilk ünvanı Gəncə şəhəri, Bulatov küçəsindəki 26 nömrəli ev oldu. Lakin əməkdaşları şübhə etmirdilər ki, cümhuriyyət hökuməti idarələri kimi, "Azərbaycan"ın redaksiyası da bu şəhərdə müvəqqəti yerləşib. Qəzetin sentyabrın 19-da rus dilində çapdan çıxan ikinci nömrəsində yazılırdı: "Hökumət idarələri hələlik Gəncədə fəaliyyət göstərir. Bu günlərdə hökumət ilk imkan düşən kimi mərkəzi idarələri Bakıya köçürəcəkdir".

"Azərbaycan"ın üçüncü nömrəsi sentyabrın 22-də, dördüncü nömrəsi isə sentyabrın 25-də işıq üzü gördü. Dörd səhifəlik - üç səhifəsi rus, bir səhifəsi Azərbaycan dilində olan dördüncü buraxılışda "Azərbaycan" qəzetinin Bakıya köçməsi barədə elan dərc olundu. Qəzetdə rus dilində "Gəncə, 25 sentyabr 1918" sərlövhəli yazıda Azərbaycan hökumətinin 3 aylıq fəaliyyətdən sonra Gəncəni tərk edərək öz paytaxtına köçdüyü bildirildi. Məqalədə Gəncənin Azərbaycan dövlətçiliyi tarixində əhəmiyyətli yer tutduğu da vurğulanırdı. "Azərbaycan"ın həmin nömrəsində "İdarədən" verilən xəbərdə bildirildi: "Qəzetimiz bu gündən Bakıya köçdüyünə binaən hər bir sifarişat üçün bundan sonra bu ünvana müraciət etməli: Bakı, "Azərbaycan" qəzeti idarəsinə".

"Azərbaycan" qəzeti Gəncədə on gün fəaliyyət göstərdi. 1918-ci il sentyabrın 25-də qəzetin "Heyəti-idarə"si (Redaksiya heyəti) Nazirlər Şurası və mühüm dövlət idarələri ilə birlikdə Bakıya köçdü.

Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Heyəti-Vükəlanın (Nazirlər Şurası) "Metropol" mehmanxanasında (indiki AMEA Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində) yerləşdi. "Azərbaycan" qəzetinin redaksiyası isə həmin binanın qarşısındakı - Kolyubakinski (indiki Nigar Rəfibəyli) küçəsindəki Adamovlara məxsus yaşayış binasına köçdü. Bu ünvanda fəaliyyətini 1918-ci ilin 3 oktyabrından 28 noyabrınadək davam etdirdi.

1918-ci il oktyabrın 3-də "Heyəti-təhririyyə" imzası ilə "Azərbaycan"ın ana dilində sayca 5-ci, Bakıda isə ilk nömrəsi 4 səhifə olmaqla nəşr edildi. Həmin nömrədə ilk dəfə "Azərbaycan" adının altında: "Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir", - yazıldı.

Təbriklər davam edirdi. Bakının azad edildiyi gün Avropa dövlətlərinin iştirakı ilə İstanbulda keçirilən konfransda Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyətinə başçılıq edən Məhəmməd Əmin Rəsulzadənin Fətəli xan Xoyskiyə göndərdiyi təbrik teleqramı "Azərbaycan" qəzetinin 5-ci nömrəsində verildi. Teleqramda yazılmışdı: "Paytaxtımızın istirdadından dolayı təhti-idareyi-alilərində bulunan hökumətimizi səmimi təbrik ilə Bakının yeni türk ellərini istixlas (xilası) üçün sarsılmaz bir qəleyi-mətin olması ümidilə bütün arkadaşlarımla öpüşürüz.

Azərbaycan heyəti-mürəxxəsəsi namına Rəsulzadə Məhəmməd Əmin".

Ceyhun bəy Hacıbəylinin "C.Dağıstani" imzası ilə yazdığı "Tarixi gün" sərlövhəli məqaləsi də həmin nömrədə dərc olundu. Müəllif Bakının erməni-bolşevik işğalından azad olunmasından bəhs edirdi: "Bismihil-kərim, düşmənlər öz maraqlarına yetmədilər, məyus oldular. Türkün qəhrəman oğulları öz istedadlarını, öz rəşadətlərini, özlərinin yaşamaq üçün ölməyə hazır olmalarını bütün aləmin gözünə çırpdılar və bununla böylə, yüz illərcə başqalarının təhti-təzyiqində əzilən milyonlarca dindaş və millətdaşlarımıza böyük-böyük ümidlər bəxş etdilər".

Qəzet rusdilli oxucularını da intizarda qoymayaraq elan etdi: "Sabiqdə Gəncədə rus dilində nəşr olunan "Azərbaycan" qəzetəsi şənbə günündən etibarən Bakıda nəşr olunmağa başlayacaqdır. Ünvan: Bakı, Kolyubakinski küçədə "Azərbaycan" idarəsi". Oktyabrın 7-də Bakıda "Azərbaycan" qəzetinin rus dilində ilk nömrəsi nəşr edildi.

## Məsləki Vətən istiqlalı yolunda çalışmaq idi

"Azərbaycan" qəzeti altıncı nömrəsinədək "Heyəti-təhririyyə" (redaksiya heyəti) imzası ilə işıq üzü gördü. Azərbaycan dilində olan nömrələri noyabrın 28-dən Ceyhun bəy Hacıbəylinin, rus dilində olan nömrələri isə Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə təqdim olundu.

Fəal yazarlarından biri, qardaşı Ceyhun Hacıbəyli Paris Sülh Konfransında iştirak etmək üçün ölkədən getdikdən sonra həm də qəzetin redaktoru vəzifəsini tutan Üzeyir Hacıbəyli "Azərbaycan"ın məsləkini belə açıqlayırdı: "Danışırlar ki, "Azərbaycan" qəzeti guya "Müsavat" partiyasına məxsus firqəvi bir qəzet imiş. Bu fəqərə barəsində bunu bəyan etməyi lazım bilirəm ki, qəzetimiz partiya qəzeti deyildir. "Azərbaycan" qəzetinin məsləki Vətən istiqlalı yolunda çalışmaqdan ibarətdir".

Bu məram, bu məslək qəzetin müxtəlif janrlı yazılarında əksini tapırdı. Yazılarda əsasən, azadlıq, istiqlal arzuları ifadə olunurdu. Poeziya nümunələrinin əksəriyyətində belə Vətən sevgili, gözəl deyə vəsf edilirdi. Cəfər Cabbarlı "Azərbaycan" qəzetinin 25 avqust 1919-cu ilin 260-cı nömrəsində C.Cabbarzadə imzası ilə yer verilən "Sevdiyim (Azərbaycanın bayrağına)" adlı şeirində duyğularını belə ifadə edirdi:

*O yerlərdə qardaşları, dostları var, pək sevir,*
*Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim.*
*Canalıcı bir görkəmlə dağ başında durunca,*
*Oxşadıqca bahar yeli açıq-dağnıq tellərin.*

*Nazlı əlin umuzunda saçlarına vurduqca,*
*Bir-bir oxşayırsan bütün Turan ellərin.*
*Altaylardan, Altun dağdan doğma sellər bəkləyor*
*Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.*

Azərbaycanın vətənpərvər övladlarının sevinci bir idi. Müstəmləkə zülmündən qurtulmuş, istiqlalı bərqərar edilmiş məmləkətin övladları, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşları idilər. Bu duyğunu Üzeyir bəy "Azərbaycan" qəzetinin 18 noyabr, 1918-ci il tarixli 43-cü sayında belə ifadə edirdi: "...yerimiz, yurdumuz, torpağımız özümüzün, hökumətimiz, camaətimiz, qoşunumuz özümüzün, dinimiz, ayin və adətimizə edilən şəmadətdən qurtulduq".

Odur ki, azad ölkələrinin başının üzərində dolaşan təhlükələri görərək narahatlıq keçirsələr də, məhrumiyyətlər içərisində olsalar da, gələcəyə inamları böyük, ümidləri tükənməz idi. Bu hisslərlə yaşayır, çalışır, nöqsanları aradan qaldırmağa, çətinliklərin öhdəsindən gəlməyə səy göstərirdilər.

## Ədalətsiz siyasətin sonu...

Müstəqil dövləti, doğma milləti üçün vacib, əhəmiyyətli olan bütün məsələlər bu mətbu orqanda dərc olunan müxtəlif janrlı yazıların başlıca mövzusu idi. Azərbaycanın ayrı-ayrı əyalətlərində mövcud vəziyyət də diqqətdən kənarda qalmırdı. "Azərbaycan"ın bölgələrdə xüsusi müxbirlərinin olması hadisələrin operativ şəkildə işıqlandırılmasına şərait yaradırdı.

Qəzetin oxucuları, həmçinin dünyada baş verən mühüm hadisələr barədə də məlumat ala bilirdilər. Çağdaş ictimai-siyasi həyata dair yazılarla bərabər, Azərbaycanın və dünya dövlətlərinin tarixindən bəhs edən məqalələrə də qəzetin səhifələrində mütəmadi olaraq yer verilirdi.

"Hökumət qərarları", "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Xarici xəbərlər", "Bakı xəbərləri", "Azərbaycanda", "Rusiyada", "Ermənistanda", "Gürcüstanda", "Türkiyədə", "Türkiyə mətbuatı", "Paris xəbərləri", "İran işləri", "Qəzetlərdən", "Sülh ətrafında", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi" və digər daimi rubrikalarının olması "Azərbaycan" qəzetinin mövzu əhatisinin genişliyindən xəbər verirdi. Qəzetin səhifələrində fəhlə və kəndli həyatına dair yazılara, oxucu məktublarına yer ayrılırdı. Ədəbiyyat, teatr, muzey işi, səhiyyə və digər sahələrdə aparılan və ya həyata keçirilməsi zəruri məsələlər əksini tapırdı. Parlamentin mühüm iclaslarından stenoqrafik hesabatları isə bu mətbu orqanda "Azərbaycan Məclisi-Məbusanında" rubrikası altında dərc olunurdu.

Mətbuatımızın "Əkinçi"sindən başlanan yolu "Azərbaycan" azad ölkənin mətbuat orqanı olaraq fəxrlə davam etdirirdi. Müstəqil dövlətimizin vətəndaşlarının hüquqlarını qoruyur, inkişafı naminə məsuliyyətlə çalışırdı. Azərbaycançılar nail olduqları istiqlalın dəyərini bilirdilər. Çünki Fərhad Ağazadənin "Azərbaycan" qəzeti, 28 may 1919-cu il tarixli 190-cı sayında "Türk şüərası və istiqlal" adlı məqaləsində yazdığı kimi, istiqlal minlərcə şəhidin qanı bahasına başa gəlmişdi.

Narahatlıqlarının səbəbləri isə həm çox, həm də müxtəlif idi. Azərbaycanın dövlət müstəqilliyinə qarşı təhdidlər, təzyiqlər bitməmişdi. Ancaq ən böyük nigaranlıqları şimaldan gələn və getdikcə yaxınlaşmaqda olan qasırğadan idi. Üzeyir bəy Hacıbəyli qəzetin hələ 26 may 1919-cu il tarixli nömrəsində yazırdı: "...bizim üçün şimaldan təhlükə mövcud olduğu məlum bir məsələdir. Bunu heç vaxt unutmayıb da var qüvvəmiz ilə çalışmalıyıq ki, bu şimal təhlükəsinin rəddinə qarşı həmişə və hər bir halda hazır olaq. Ona görə mümkün mərtəbə hazırlanmalı və heç bir fədakarlıqdan çəkinməməliyik".

Ancaq gələn qasırğa çox güclü və amansız oldu. Bolşeviklərin 1920-ci il aprel işğalı Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətinə son qoydu. Müstəqil cümhuriyyət hökumətinin süqutu ilə "Azərbaycan" qəzetinin də nəşri dayandırıldı. Qəzetin sonuncu nömrəsi 1920-ci il aprelin 27-də çapdan çıxdı.

Sovet hökuməti Azərbaycanda 70 il hökmranlıq etdi. Hakimiyyəti ərzində Azərbaycan xalqına milli kimliyini, soykökünü unutdurmaq üçün bütün vasitələrdən istifadə etdi. Səy göstərdi ki, bu xalq azadlığı, dövlətinin daim müstəqilliyi naminə böyük mücadilələr göstərmiş tarixi şəxsiyyətlərini unutsun. Ancaq bütün ədalətsizliklər kimi bu siyasətin də sonu gəldi. 1990-cı illərdə Azərbaycan xalqı yenidən mübarizə apararaq müstəqilliyinə qovuşdu. "Azərbaycan" qəzeti də arxivlərin tozundan qurtularaq azadlığa çıxdı...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

15 Sentyabr Bakının bolşevik-daşnak qüvvələrinin işğalından azad olunduğu gündür

# Tarixdə dönüş yaradan Zəfər

**Azərbaycanın milli yaddaşında böyük əhəmiyyət kəsb edən 15 sentyabr 1918-ci il tarixi ölkəmizdə hər il böyük təntənə ilə qeyd olunur. Məhz bu tarixdə, Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusu və Azərbaycan Milli Ordusu birlikdə Bakını bolşevik-daşnak qüvvələrinin işğalından azad ediblər.**



Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 107-ci ildönümü tamam olur. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun həyata keçirdiyi bu xilaskarlıq missiyası Azərbaycan tarixinə şanlı hadisə kimi yazılıb. Həmin hadisədən üç il əvvəl Şəmkirin məşhur Bədirbəylilər nəslindən olan Zeynal ağa Bədirbəyli zabit rütbəsində rus-türk müharibəsinin iştirakçısı olarkən döyüşlərin şiddətli vaxtı biləndə ki, o, türklərə qarşı vuruşur, ciddcəhdlə döyüşdən imtina edir: "Mən türk qardaşlarıma güllə ata bilmərəm" deyib, silahını yerə qoyur, hərbçi andını pozur və çox çətinliklə də olsa baş götürüb birbaşa Azərbaycana gəlir. Təəssüf ki, onu 1920-ci ildə küçədəcə erməni daşnaklar güllələdilər, ailəsi bolşeviklər tərəfindən Sibirə sürgün edildi.

Bu da tarixi həqiqətdir ki, Çanaqqalada türk qardaşlarına kömək edərkən, o torpaqda yüzlərlə azərbaycanlı oğullar şəhadətə qovuşmuşdur. Babalarımızın miras qoyduğu bu silah qardaşlığı sonrakı illər ərzində yeni məzmunla zənginləşərək bir millət, iki dövlətin taleyində mühüm amil olmuşdur.

Birinci Dünya müharibəsindən geri çəkilən Rusiya hərbçiləri Cənubi Qafqaza gələrək Azərbaycan ərazisində qanlar tökən erməni bandaları ilə gah gizlin, gah aşkar birgəlik nümayiş etdirdilər. Bu birgəlikdən güc alan daşnak-bolşevik ünsürlərdən təşkil edilmiş Bakı Soveti türk-müsəlman əhaliyə zülm etməyə başladı. Bakı şəhəri Stepan Şaumyanın başçısı olduğu Bakı Xalq Komissarları Sovetinin bolşevik-erməni silahlı qüvvələrinin işğalı altında olduğundan, milli hökumət müvəqqəti olaraq Gəncədə yerləşmişdi. Müstəqil Azərbaycan, Bakısız başsız bədənə bənzəyirdi. Xalq Cümhuriyyəti hökumətinin başlıca vəzifəsi Bakını işğaldan azad etməkdən ibarət idi. İş o yerə çatdı ki, 1918-ci ilin martında azərbaycanlılara qarşı törədilən soyqırımının qarşısını almaq mümkünsüz oldu.

Xatırladaq ki, bu mürəkkəb dövrdə - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulanda Bakı artıq yadellilərin əlində idi və bu səbəbdən Gəncə şəhəri müvəqqəti olaraq paytaxt seçilmişdi. Həmçinin dövlətin müstəqilliyini müdafiə etməyə qadir milli hərbi qüvvələr hələ tam formalaşmamışdı. Milli hökumətin ixtiyarında olan cəmisi 600 nəfərlik qüvvə ilə Bakı Sovetinin 18 minlik qoşununa qarşı hərbi əməliyyatlar keçirmək mümkünsüz idi. Dünyanı bölüşdürmək istəyən Rusiya, İngiltərə, Almaniya kimi dövlətlərin Cənubi Qafqaz, xüsusən neft Bakısı ilə bağlı planları bölgədə vəziyyəti daha da mürəkkəbləşdirirdi. Azərbaycanın müstəqillik əldə etməsi bu ölkələrin marağına uyğun deyildi.

1918-ci il iyunun 4-də Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə imzalanmış müqaviləyə əsasən Osmanlı dövləti Azərbaycana yardım etməyi öz üzərinə götürdü. Təbii ki, dünya türklüyünün və İslamın mərkəzi olan Osmanlı dövləti Cənubi Qafqazda azərbaycanlı qardaşlarının taleyinə biganə qala bilməzdi. Daşnak-bolşevik hücumlarının son dərəcə kəskinləşdiyi bir vaxtda Azərbaycan Xalq Cümhuriyyətinin Osmanlı dövlətinə müraciəti dərhal diqqətə alındı. Hərbi nazir Ənvər paşa qardaşı Nuru paşanın komandanlığı ilə Azərbaycana silahlı qüvvələr göndərdi. 1918-ci il mayın 25-də Nuru paşa Gəncəyə gəldi. Əhali tərəfindən böyük sevinclə qarşılanan Qafqaz İslam Ordusunun görəcəyi ilk işlərdən biri Gəncədə mövcud təhlükəni aradan qaldırmaq, düşmənləri tərksilah etmək və yerli əhalinin təhlükəsizliyini qorumaqdan ibarət idi. Bu ordunun döyüş yolu Qaraməryəm, Kürdəmir, Ağsu, Göyçay, Salyan və Şamaxıdan keçdi. Qafqaz İslam Ordusunun Bakıya daxil olmasının qarşısını almaq məqsədilə bolşevik Rusiyası Almaniya ilə avqustun 27-də müqavilə imzaladı. Almaniya Bakı neftindən alacağı bəlli pay müqabilində Osmanlı qoşunlarının Kür çayını keçməməsi üçün öhdəlik götürdü. Lakin bu da xilaskar ordunun yürüşünü dayandıra bilmədi. Bakı uğrunda döyüşlərdə Osmanlı və Azərbaycan əsgərləri çiyin-çiyinə vuruşdular. Hərbi əməliyyatlar zamanı Osmanlı ordusu 1130 nəfərdən çox şəhid vermişdi. Ümumiyyətlə isə, xilaskar türk ordusu Azərbaycan uğrunda 5 minə yaxın şəhid vermişdir. Türk ordusunun Azərbaycanda hərbi əməliyyatlar keçirdiyi bölgələrdə onlarla şəhidlik mövcuddur.

Bakı sentyabrın 15-də azad edildi. Sentyabrın 16-da Osmanlı-Azərbaycan hərbi hissələrinin Bakı ətrafında paradı keçirildi. Ertəsi gün isə Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Bu möhtəşəm qələbə Azərbaycan və türk qardaşlığının tərcümeyi-halına qızıl hərflərlə yazıldı.

Tarixdə dönüş yaradan türkün zəfəri, eyni zamanda ədaləti, sülhü bərqərar etməyin, dinc yaşamağın təntənəsi idi.

107 il bundan öncə Bakının erməni-bolşevik işğalçılarından azad edilməsi və Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı olması çox önəmli tarixi hadisə idi. Bakının işğaldan azad olunması cümhuriyyətin gələcəkdə de-fakto tanınması, müəyyən mənada de-yure təsdiqini tapması istiqamətində müstəsna hadisə sayılır. Paytaxtını xilas edən Xalq Cümhuriyyəti dünyada öz varlığını təsdiqlətdi. Bakının işğaldan azad edilməsi Azərbaycan və Osmanlı əsgərlərinin birgə səyi, Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun fədakarlığı nəticəsində mümkün oldu. Qafqaz İslam Ordusunun önəmli hissəsi yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin əsgərlərindən ibarət idi. Torpaqlarımızın, xüsusən Bakının işğaldan azad edilməsi həm də Azərbaycan-Türkiyə qardaşlığının təzahürü idi. Paytaxtımızın erməni-bolşevik daşnaklarından qurtuluşu yeni bir mərhələnin başlanğıcı oldu. Bu qələbə Qafqazın digər xalqları, Dağlılar Respublikası və digər türk-müsəlman toplumlar üçün böyük bir qurtuluş demək idi.

Yeri gəlmişkən, XXI əsrin ikinci onilliyində tarix təkrar olundu. Əgər 107 il əvvəl Osmanlı dövləti azərbaycanlı qardaşlarına hərbi qüvvə ilə kömək etmişdisə, 2020-ci ildə Azərbaycanın Vətən müharibəsi günlərində Türkiyə siyasi-mənəvi dəstək göstərdi. Beləliklə, Vətən müharibəsində qazanılan Zəfərdə türk xalqının siyasi-mənəvi dəstəyi mühüm rol oynadı və üçüncü qüvvələri hadisələrin gedişinə müdaxilə etməkdən çəkindirdi. Milli, tarixi və məntiqi əsaslara söykənən "bir millət, iki dövlət" kəlamının təsdiqi bu gün Azərbaycan və Türkiyənin birgə fəaliyyətində, sarsılmaz qardaşlığında və müttəfiqliyində öz əksini tapır.

Xatırladaq ki, Türkiyədə Çanaqqala Zəfərinin 100 illiyini (2015-ci il) və Azərbaycanda Bakının işğaldan azad edilməsinin 100-cü ildönümünü (2018-ci il) qardaş ölkələrin liderləri birlikdə qeyd ediblər. 2020-ci il dekabrın 10-da isə iki dövlətin prezidentlərinin Azərbaycanın Vətən müharibəsində Qələbəsinə həsr olunmuş Zəfər paradında iştirakı türk dünyasında qürur doğuran hadisə olmaqla yanaşı, beynəlxalq aləmə türkün birliyini və qüdrətini bir daha nümayiş etdirdi.

İki ölkənin getdikcə dərinləşən və yeni məzmunla zənginləşən münasibətlərinə misal olaraq, Türkiyənin Zəfər bayramının 100 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qardaş dövlətin lideri Rəcəb Tayyib Ərdoğana məktubundan bu sitatı gətirmək yerinə düşər: "Xüsusi qürur hissi ilə qeyd edə bilərik ki, "bir millət, iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri yoxdur". Bu qardaşlıq münasibətləri 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması ilə müttəfiqlik səviyyəsinə yüksəlib. Prezident İlham Əliyevin dediyi kimi, tarixi Qars müqaviləsindən 100 il sonra, azad edilmiş Şuşa şəhərində imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir. İki qardaş ölkə arasındakı əlaqələr möhkəm və sarsılmazdır.

Azərbaycan paytaxtının ən hündür nöqtələrinin birində ucaldılmış Türk Şəhidliyi abidəsi Qafqaz İslam Ordusu döyüşçülərinin xatirəsinə ehtiram əlaməti olmaqla yanaşı, həm də qardaşlığımızın rəmzi sayılır. Azərbaycan torpaqlarında uyuyan türk şəhidlər, eyni zamanda iki qardaş ölkənin ortaq taleyindən xəbər verir. Onlar öz fədakarlıqları və cəsarətləri ilə dastan yazaraq Türkiyə və Azərbaycan əbədi qardaşlığının rəmzinə çevrildilər. 1918-ci ildə işğaldan azad edilən Bakı, müasir dövrdə İkinci Qarabağ savaşından qalib çıxan Azərbaycanın paytaxtı olaraq dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir. Bu və digər tarixi məqamlar bütün türk dünyasını qürurlandırır və sevindirir. Bugünkü reallıqlar, həmçinin Ulu Öndər Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və Qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarının həyatiliyini bir daha təsdiqləyir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# REGİONLAR

15 Sentyabr Bilik Günüdür

## Yüksək bal toplayan məzunlarla görüş keçirilib

### Şirvan

Şəhər icra hakimiyyətində 2025-2026-cı tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək bal toplayaraq ali məktəblərə qəbul olunmuş şəhər ümumtəhsil məktəblərinin məzunları ilə görüş keçirilib.



Görüşdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Heydər Əsədov, şəhər icra hakimiyyəti başçısının müavinləri, təhsil işçiləri və şəhər üzrə 600-dən yuxarı bal toplayaraq ali məktəblərə qəbul olunmuş məzunlar iştirak ediblər.

Görüş iştirakçıları əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər gül dəstələri düzərək, əziz xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

Şəhər icra hakimiyyətinin başçısı ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə göstərərək tələbə adını qazanan bütün məzunları və onların valideynlərini təbrik edib, müəllimlərə təşəkkürünü bildirib. Məzunlara milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər, savadlı gənclər olaraq ölkəmizin sosial-iqtisadi və mədəni həyatında aktiv iştirak etməyi arzulayıb. Ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş təhsilin inkişafı strategiyasının bu gün Prezident İlham Əliyev tərəfindən yeni dövrün reallıqlarına uyğun olaraq uğurla davam etdirildiyini diqqətə çatdırıb.

İcra başçısı təhsilin inkişafına göstərilən dövlət qayğısından və bu sahədə əldə edilən uğurlardan danışaraq qeyd edib ki, təhsilin inkişafı ölkəmizdə daim diqqət mərkəzində saxlanılır, tədris müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir, yeni məktəb binaları inşa edilir, mövcud məktəb binaları təmir olunur və ya yenidən qurulur. Bildirib ki, respublikamızda təhsilin inkişafına göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün ümumtəhsil məktəblərini bitirən məzunlarımız həm buraxılış, həm də ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr əldə edirlər. Həmçinin bu il Şirvan şəhər ümumtəhsil müəssisələrindən 492 nəfər abituriyentin ali təhsil müəssisələrinə sənəd verdiyini, 333 nəfər məzunun müxtəlif ali təhsil müəssisələrinə qəbul olunaraq tələbə adını qazandığını, onlardan 30 nəfərin 600-700 arası bal topladığını, o cümlədən Şirvan şəhər Kimya-biologiya təmayüllü liseydən 17 nəfərin 600-dən yuxarı bal toplayaraq ali məktəblərə qəbul olunduğunu qeyd edib.

Sonra çıxış edən millət vəkili Heydər Əsədov ali məktəblərə qəbul olunmuş şagirdləri və onların valideynlərini təbrik edib, ölkəmizdə təhsilin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsil sisteminin müasir tələblərə cavab verəcək şəkildə daim yeniləndiyini, ali təhsil müəssisələrimizin beynəlxalq reytinqlərdə mövqeyinin ildən-ilə yüksəldiyini qeyd edərək, məzunlarla öz təcrübələrini bölüşüb, tövsiyələr verib.

Görüşdə digər çıxış edənlər tələbə adını qazanmış gəncləri təbrik edib, onlara uğurlar arzulayıblar. Məzunlar onlara göstərilən diqqət və qayğıya görə təşəkkür edərək gələcək planlarından söz açıblar.

Görüşdə 2025-2026-cı tədris ili üçün ali məktəblərə keçirilən qəbul imtahanlarında yüksək nəticə göstərən məzunlara şəhər icra hakimiyyəti başçısının fəxri fərmanı və hədiyyələr təqdim edilib, xatirə şəkilləri çəkilib.

### Hacıqabul

Rayon icra hakimiyyətində rayon üzrə yüksək balla ali təhsil müəssisələrinə qəbul olunan tələbələrlə görüş keçirilib.

Rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov tələbə adını qazanan gəncləri təbrik edib, onlara təhsildə və gələcək həyatlarında uğurlar arzulayıb, yüksəkbilikli mütəxəssis kimi yetişməyi və Vətənə ləyaqətlə xidmət göstərməyi tövsiyə edib. O, dövlətimizin başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilin inkişafını həmişə diqqətdə saxladıqlarını və bu istiqamətdə mühüm tədbirlər həyata keçirdiklərini vurğulayıb. Tələbələrlə səmimi söhbət edərək bir daha təbriklərini çatdıraraq təhsillərinin növbəti mərhələsində onlara müvəffəqiyyətlər arzulayıb, ümidvar olduğunu bildirib ki, onlar ali təhsil alaraq savadlı, bilikli, bacarıqlı gənc kadr kimi müstəqil Azərbaycanımızın inkişafı və tərəqqisi naminə görülən işlərə öz layiqli töhfələrini verəcəklər.

Tədbirdə təhsildə fərqlənmiş, qəbul imtahanlarında 600 baldan yuxarı nəticələr əldə edərək ali məktəblərə qəbul olunmuş tələbələr mükafatlandırılıblar.

Görüşün sonunda ali təhsil müəssisələrinə qəbul olan tələbələr ilə xatirə şəkilləri çəkdirilib.

### Yardımlı

Rayon icra hakimiyyətində qəbul imtahanlarında 600-dən yuxarı bal toplayaraq tələbə adını qazanan məzunlarla görüş keçirilib. Görüşdə RİH başçısı Ayaz Əsgərov, müavinləri, şöbə müdirləri, təhsil sektorunun əməkdaşı, ATİAHİ Yardımlı rayon komitəsinin sədri və məzunlar iştirak ediblər.



Rayon icra hakimiyyətinin başçısı Ayaz Əsgərov tələbə adını qazanan gəncləri təbrik edib, onlara uğurlar arzulayıb, yüksəkbilikli mütəxəssis kimi yetişməyi və Vətənə ləyaqətlə xidmət göstərməyi tövsiyə edib. RİH başçısı qeyd edib ki, qalib ölkəmizin qüdrətli gələcəyinə hesablanmış Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti hazırda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Dövlətimizin təhsil strategiyasının kökündə milli-mənəvi dəyərlərin qorunması, xalqın tarixi, mədəniyyəti, cəmiyyətimizin uğurlu gələcəyi, ölkəmizin davamlı və dayanıqlı inkişafı dayanır.

Digər çıxış edənlər də məzunları yüksək nəticələrlə tələbə adına layiq görülmələri münasibətilə təbrik edib və nailiyyətlərinin davamlı olmasını arzulayıblar.

Qeyd edək ki, bu il rayonun 153 məzunu tələbə adına layiq görülüb, onlardan 9-u 600-dən yuxarı nəticə göstərib.

Sonda qəbul imtahanlarında yüksək bal toplayan tələbələrə qiymətli xatirə hədiyyələri təqdim edilib.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

## Şəhid Mahir Paşayevin ailəsi ziyarət olunub

**Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov şəhid Mahir Bəxtiyar oğlu Paşayevin ailəsini ziyarət edib. Söhbət zamanı şəhidin şərəfli həyat yolundan danışılıb və ev-muzeyindəki əşyaları nəzərdən keçirilərək xatirəsi anılıb.**



Rayon rəhbəri ailənin qayğı və ehtiyacları ilə maraqlanıb, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin ailələrinə hər zaman böyük diqqət və qayğı göstərildiyini bildirərək, bu sahədə həyata keçirilən işlərin Cəlilabadda da davam etdirildiyini bildirib.

Şəhidin ailəsi dövlətimizin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan razı qaldıqlarını ifadə ediblər.

Qeyd edək ki, Mahir Paşayev 1997-ci il sentyabrın 1-də Cəlilabad rayonunun Əsədli kəndində anadan olub. Azərbaycan Ordusunun giziri olan Mahir Paşayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcərin, Cəbrayılın, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Mahir Paşayev oktyabrın 9-da Cəbrayıl döyüşləri zamanı şəhid olub.

44 günlük Vətən müharibəsində adını qəhrəmanlar sırasına yazdıran Mahir Paşayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, 3-cü dərəcəli "Rəşadət" ordeni, "İgidliyə görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

*"Azərbaycan"*

## Birinci Qarabağ müharibəsinin itkin şəhidləri dəfn edilib

### Qəbələ

Birinci Qarabağ müharibəsinin daha bir itkin şəhidi - Vəkil Möylan oğlu Qayıbov Qəbələ rayonunun Qəmərvan kəndindəki qəbiristanlıqda dəfn olunub.



AZƏRTAC xəbər verir ki, əvvəlcə şəhidin ata yurdunda vida mərasimi keçirilib. Cənazə namazı qılınıb, dualar oxunub. Sonra itkin şəhid torpağa tapşırılıb. Dəfn zamanı Dövlət himni səsləndirilib, yaylım atəşi açılıb.

Dəfn mərasimində şəhidin ailə üzvləri, qazilər, kənd sakinləri, eləcə də Qəbələ Rayon İcra Hakimiyyətinin və hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidin xalası oğlu Zaur Şirinov bildirib ki, Vəkil Qayıbov 1973-cü il avqustun 30-da anadan olub. O, Bakı Ticarət Texnikumunda oxuyurmuş. "Oradan evə gəlib və ön cəbhəyə gedəcəyini bildirib. Döyüşlərdə dəfələrlə fərqlənib. Qorxmaz, mübariz oğlan idi", - deyə o vurğulayıb.

Zaur Şirinov deyib ki, Vəkil Qayıbov 1992-ci il iyunun 15-də Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.

Qeyd edək ki, Qəmərvan Qəbələdə ən çox şəhidi olan kəndlərdən biridir.

### Quba

Birinci Qarabağ müharibəsinin itkin şəhidi Murad Məlikməmməd oğlu Vəliyev Qubada dəfn edilib.



AZƏRTAC xəbər verir ki, 1994-cü ildə şəhidlik zirvəsinə ucalan qəhrəman döyüşçü ölümündən 31 il sonra doğma yurdunda torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Quba Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Quba rayon şöbəsinin, hüquq-mühafizə orqanlarının, rayon ictimaiyyətinin nümayəndələri, qazilər və sakinlər iştirak ediblər.

Vida mərasimi keçirildikdən sonra şəhid Murad Vəliyev doğulub boya-başa çatdığı Quba rayonunun Nütəh kəndində dəfn edilib.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları səsləndirilib, şəhidlərin ruhuna dualar oxunub, Azərbaycanın üçrəngli Bayrağı şəhidin ailəsinə təqdim edilib.

Murad Vəliyev 1971-ci il aprelin 5-də Qubanın Nütəh kəndində anadan olub. 1992-ci ildə könüllü olaraq Birinci Qarabağ müharibəsinə qoşulub. Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla döyüşüb. Bu vaxta kimi itkin düşmüş hesab olunurdu. Şəhid Murad Vəliyevin qalıqları Füzuli rayonunun Seyidəhmədli kəndi ərazisində aşkarlanıb.

## Könüllülər üçün təşkil olunan təlim başa çatıb

**Naxçıvan şəhərində Naxçıvan Təlim Mərkəzi və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Gənclərin Şəxsi İnkişaf Həftəsi" sentyabrın 12-də yekunlaşıb.**



AZƏRTAC xəbər verir ki, proqramın sonuncu günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin əməkdaşı Aslan Səfərov gənclərə "Sosial şəbəkələr və şəxsi brend: effektiv start" mövzusunda sessiya təqdim edib. Təlimdə iştirakçılar şəxsi brendin formalaşdırılması, sosial mediada düzgün mövqe tutmağın yolları, müasir kommunikasiya imkanlarından səmərəli istifadə və rəqəmsal mühitdə effektiv fəaliyyət istiqamətləri barədə ətraflı bilgilər əldə ediblər. Sessiyada gəncləri maraqlandıran suallar təlimçi tərəfindən ətraflı cavablandırılıb, müvafiq tövsiyələr verilib.

Sonda təşkilatçı qurum rəhbərlərinin iştirakı ilə gənclərlə görüş keçirilib. Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini, nazir vəzifələrini icra edən Məcid Seyidov gənclərin şəxsi inkişafı istiqamətində görülən işlər barədə danışıb, gənclərin peşə və karyera imkanlarının artırılması amilinin nazirlik üçün daim aktuallıq təşkil etdiyini diqqətə çatdırıb. Nazir müavini effektivliyin artırılması baxımından Naxçıvanda və Bakıda fəaliyyət göstərən təcrübəli təlimçilərin bu işə cəlb olunduğunu, nəticədə daha bacarıqlı, işgüzar gənclərin formalaşdırılmasına güclü təkan verildiyini deyib.

Təlimlərin gənclər üçün faydalı olacağına inamını ifadə edən Naxçıvan Təlim Mərkəzinin İdarə Heyətinin sədri Bəhruz Nəzərov mövzu seçimi zamanı aktuallıq və faydalılıq prinsipinin əsas götürüldüyünü, o cümlədən təlimçi qismində öz sahələrində uğurlu karyerası, böyük təcrübəsi olan şəxslərə üstünlük verildiyini diqqətə çatdırıb. O, Gənclər və İdman Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində bundan sonra da müxtəlif sahələri əhatə edən təlimlərin keçirilə biləcəyini vurğulayıb, gənclərə fəal və aktiv iştiraka görə təşəkkür edib.

Sonra "Gənclərin Şəxsi İnkişaf Həftəsi" təlim proqramının iştirakçılarına sertifikatlar təqdim edilib.

## Göytəpə şəhərinin küçələri asfaltlanır

**Cəlilabad rayonunun Göytəpə şəhəri ərazisində əhalinin rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə bir sıra küçə və yollarda infrastrukturun yenilənməsi çərçivəsində asfaltlanma işlərinə başlanılmışdır. Bu, şəhərin gələcəyinə yönəldilən investisiyadır.**



Yolların, küçələrin yenidən qurulması həm nəqliyyat sisteminin müasir tələblərə cavab verməsinə, həm də vətəndaşların gündəlik rahatlığının təmin olunmasına xidmət edir. Uzunmüddətli perspektivdə isə şəhərin daha gözəl və abad məkana çevrilməsinə zəmin yaradır. Belə ki, Cəlilabad Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Göytəpə şəhər ərazisində Rövşən İsmayılov küçəsində 430 metr, İnqilab Niftullayev küçəsində 310 metr, Yusif Məmmədəliyev küçəsində 240 metr, Akif Xanışov küçəsində 315 metr və Vasif Hüseynov adına 2 saylı tam orta məktəbin həyətində asfaltlanma işləri yekunlaşmışdır. Savalan küçəsində 110 metr və N.Nərimanov küçəsi ilə Savalan küçəsini birləşdirən döngədə 94 metr asfalt örtüyünün çəkilməsi üçün işlər yekunlaşmış, yaxın günlərdə asfaltlanma işləri tamamlanacaqdır.

Görülən işlərdən razı qalan şəhər sakinləri küçələrin yüksək keyfiyyətlə asfaltlanmasını məmnuniyyətlə qarşılayıblar.

*"Azərbaycan"*

## Məmmədoba kəndində kənddaxili küçəyə asfalt örtüyü döşənir

**Masallı rayonunda əhalinin rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə bir sıra küçə və kənddaxili yollarda infrastrukturun yenilənməsi istiqamətində təmir-bərpa işləri aparılmaqdadır.**

Belə ki, Tüklə ərazisinin Məmmədoba kəndində Masallı Rayon İcra Hakimiyyətinin təşəbbüsü və kənd xeyriyyəçilərinin maddi dəstəyi ilə 47 saylı Yol İstismarı MMC tərəfindən kənddaxili küçəyə 700 metr məsafədə asfalt örtüyünün döşənməsi işlərinə başlanılmışdır.

10 sentyabr 2025-ci ildə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, başçının birinci müavini Tohid Hüseynov, ərazi nümayəndəliyi, bələdiyyə, media nümayəndələri və kənd sakinləri birlikdə rayonun Məmmədoba kəndində kənddaxili küçəyə asfalt örtüyünün döşənməsi işləri ilə yerində tanış olmuşlar.

Rayon rəhbərinə 47 saylı Yol İstismarı MMC-nin rəisi Mahmud Bağırov yolda aparılan işlərlə bağlı geniş məlumat vermişdir.

*"Azərbaycan"*

## Mucuq kənd körpüsü təmir edilir

**Qusar rayonunda həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq tədbirləri əhalinin sosial rifahına və infrastruktur təminatına mühüm töhfə verir.**



Şəhər ərazisində yolların yenilənməsi, ictimai sahələrin abadlaşdırılması, sosial və mühəndis-kommunikasiya obyektlərinin bərpası istiqamətində ardıcıl işlər aparılır. Bu layihələr həm şəhər əhalisinin rahatlığını təmin edir, həm də kəndlərin inkişafına şərait yaradır. Rayon ərazisində görülən tədbirlərin davamı olaraq, Mucuq kəndində yerləşən, uzun illərdir kənd sakinlərinin gündəlik istifadəsində olan körpü əsaslı şəkildə təmir edilir. İntensiv yağıntılar nəticəsində daha da yararsız vəziyyətə düşmüş, üst hissəsi ağac, torpaq və çınqılla formalaşdırılmış konstruksiya təhlükəsizlik baxımından risk yaratdığından körpünün bərpası zəruri hesab olunub.

Qusar Rayon İcra Hakimiyyəti və yerli bələdiyyənin birgə təşəbbüsü ilə həyata keçirilən təmir işləri çərçivəsində körpünün dayaqları möhkəmləndirilib, üst örtüyü isə müasir və davamlı materiallarla yenilənib. Əvvəllər ağac, torpaq və daş qatından ibarət olan üst hissə möhkəm dəmir-beton plitələrlə əvəzlənərək nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkətini təmin edəcək.

Qeyd edək ki, körpü tikintisi ilə eyni zamanda ətrafda abadlıq işləri də aparılır. Hazırda görülən işlər başa çatmaq üzrədir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Bazar günü etüdü



# Bu dünya bir pəncərədir...

*Hər gün gördüyümüz, əlimizlə toxunduğumuz, arxasında dayanıb fikrə daldığımız, dərdimizi bölüşdüyümüz, heyran-heyran dünyaya baxdığımız pəncərələr. Həyatımızda, günümüzdə bizə çox lazımlıdır, vacibdir, çünki üzümüzə işıq düşür. Hər açanda küləyi telimizi darayan havası ürəyimizə sərinlik gətirir, vücudumuza rahatlıq verir.*

*Pəncərələr tikililərin, binaların bəzəyidir, gərəyidir. Onlarsız evlərimizin yaraşığı olmur, otaqlarımıza təmiz hava dolmur, işıqlı olmur.*

*Atalarımız, babalarımız bir zamanlar qoynunda yaşadığımız bu böyüklükdə dünyanı balaca pəncərəyə bənzədiblər. Fikirlərini poetik şəkildə ifadə edərək deyiblər ki, "dünya bir pəncərədir hər gələn baxar gedər". Amma bəzən iş tərsə düşür, heç bu pəncərədən baxa bilməyənlər də olur. O pəncərəni görə bilməyənlər də olur.*

*Ölçüsü, boy-buxunu, duruşuğu, yaraşığı bir-birinə bənzəməyən pəncərələr var. Biri-birindən bir az böyük, bir az kiçik, bir gözlü, iki gözlü, üç gözlü, min-min gözlü pəncərələr. Dili, dodağı daim sözlü-söhbətli, xatirələrlə dolu gözlü pəncərələr dünyaya baxışlarımızı formalaşdırır, bizi çox sirlərdən agah edir.*

*Həmişə yeri yuxarı başda olan, bəzən açıq, bəzən də bağlı qalan, tez-tez ürəklərə, qəlblərə, könüllərə nur çiləyən, işıq salan pəncərələr həyatımızın bir parçasıdır. Bəzən insanların ağrı-acısına, kədərinə şahidlik edən, sanki kövrələn, dərdlərinin od-alovuna yanan, soyuqda, şaxtada, qarda-boranda üşüyüb, titrəyib donan pəncərələr, gözümüzün önündədir.*

*Bəzən də yerini, mövqeyini, səmtini, istiqamətini dəyişən pəncərələri görürük. Heç vaxt qoyulduğu yerdən tərpənməyən, gözdən, könüldən uzaqlara getməyən pəncərələr də diqqətimizi çəkir. Həmişə bir yerdə qalıb acılı-şirinli ömür sürən, yavaş-yavaş qocalan, qocala-qocala, da neçə-neçə insanları kədərli, qəmli, bir az da nəmli baxışlarla yola salan, dünyaya gələnləri, təzə doğulanları şirin təbəssümlə, gülərüzlə, şirin sözlə əl çalıb qarşılayan, alqışlayan pəncərələr, beləcə, həyatımıza şahidlik edirlər.*

*Bəzən əlçatan, ünyetən, günyetən, heç kimin xətrinə dəyməyən, qürurundan kimsəyə baş əyməyən pəncərələrlə də rastlaşırıq. Bəzən də əlçatmayan, ünyetməyən, günyetməyən, insanların xətrinə dəyən, qürurunu unudub kimə gəldi baş əyən pəncərələr də qarşımıza çıxır. Belə pəncərələri heç kim sevmir, uzaqdan daş atıb şüşəsini sındırırlar, sonra da taxtasını parça-parça edib ocağa atıb yandırırlar.*

*Bəzən bəxtləri gətirmir, diqqətdən, qayğıdan, nəzərdən uzaqda qalır pəncərələr. Buna görə də üzləri, gözləri gülmür, saralıb-solur pəncərələr. Qırılır, sınır, bir tərəfi sallanır, sonra da yerindən üzülür, divardan aşağı düşür pəncərələr. Belə anlarda gözlərindən damla-damla yaş süzülür. Nə qədər çətin olsa da, sabahlarda yaşayacaqları xoş günlərin xətrinə bütün çətinliklərə dözüb dayanırlar.*

*Onlar heç vaxt mübarizələrindən qalmırlar, küləklə, yağışla döyüşürlər, qarla, çovğunla öcəşirlər.*

*Müxtəlif istiqamətlərə - içəri, çölə, sağa, sola, geriyə, irəliyə, dağa-daşa, bağa-bağçaya, meşəyə, çöllərə, düzlərə, küçələrə, yollara səmt verir pəncərələr. Üstünə gün düşəndə şüşəsindən göz qamaşdıran şüalar saçır pəncərələr.*

*Müxtəlif rəngli, həzin ahəngli, xoş müjdəli pəncərələr var. Ağ, qara, sarı, göy, qırmızı, bənövşəyi və başqa-başqa rənglərə boyanmış pəncərələr göz oxşayır. Hər gün, hər səhər gözümüzün ilk dikildiyi pəncərələr olur. Necə də bənzərsiz, rəngbərəng, bir-birindən qəşəngdir pəncərələr. Həmişə könlümüzü oxşayıb, ürəyimizi açan, qəlbimizə işıq saçan pəncərələr...*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
İlham Əliyevin təşəbbüsləri regional və qlobal əməkdaşlığı gücləndirir
İnkişaf etmiş ölkələr Azərbaycanla əməkdaşlıqda maraqlıdırlar
Şanlı Zəfərdən suverenliyə
Ölkəmizdə yaradıcı insanlar daim diqqət mərkəzində saxlanılır
Sülhə doğru... Ermənistanda revanşistlərin bütün cəhdləri bumeranq effekti verir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Fransa və Əlcəzair: Müstəqillikdən bəri ən böyük böhran

## İki ölkə arasında diplomatik çəkişmə uzanır, münasibətlər pisləşir

**Fransa hökumətindəki mənbələr "Euronews" telekanalına bildiriblər ki, Paris və Əlcəzair arasında münaqişə ən böyük diplomatik böhrana çevrilib.**



Keçən il alovlanan Qərbi Sahara ərazisinin suverenliyi ilə bağlı mübahisələrdən qaynaqlanan münaqişə Əlcəzair məhkəməsinin yazıçı Bualem Sansal və fransız jurnalist Kristof Gleyzi həbs cəzasına məhkum etməsindən sonra daha da pisləşib.

O vaxtdan bəri vəziyyət daha da gərginləşib, hər iki ölkə diplomatların qovulduğunu elan edib.

Avqust ayında Fransa Prezidenti Emmanuel Makron Əlcəzair diplomatları və hökumət rəsmiləri üçün daha sərt viza tələblərini tələb edərək, 2013-cü ildə imzalanmış ikitərəfli razılaşmanı "artan miqrasiya çətinlikləri" səbəbilə dayandırıb.

Bundan sonra mübahisə Fransa sərhədlərindən kənara çıxıb: daxili işlər naziri Bruno Retayyo Şengen tərəfdaşlarına yeni məhdudiyyətlər barədə məlumat verərək, əlcəzairli diplomatın İspaniyaya tətilə buraxılmamasına səbəb olub.

Oksford Universitetinin Şimali Afrika tarixi professoru Ceyms Makduqal "Euronews"a deyib ki, bütün əlcəzairlilərə Fransaya vizasız giriş imkanı verən müstəqillik müqaviləsi nəzərə alınmaqla, Əlcəzair diplomatlarının viza almalı olması "utancverici və alçaldıcıdır".

Paris və Əlcəzair arasındakı gərgin münasibətlər Fransanın Şimali Afrikadakı müstəmləkəçiliyinin birbaşa nəticəsidir. Məsələ ilə yaxından tanış olan keçmiş yüksəkrütbəli fransız diplomat bildirib ki, münasibətlər mürəkkəbdir, çünki keçmişi, tarixi, həm də gələcəyi nəzərə almaq lazımdır.

Əlcəzairin 60 il əvvəl yüz minlərlə insanın ölümünə səbəb olan səkkizillik müstəqillik müharibəsi və fransızların 130 ildən çox nəzarət etdikləri ölkədən qaçması hələ də diplomatik döyüşlərdə əks-sədasını verir.

Müstəqillik əldə etdikdən sonra Əlcəzair anti-müstəmləkəçilik və müstəqillik hərəkatlarının mərkəzinə çevrilib. Bu gün Əlcəzair küçələrində Fələstin Azadlıq Təşkilatının (FAT) və Qərbi Sahara müqavimət hərəkatı olan Polisario Cəbhəsinin ofislərini görmək olar.

Qlobal Məsələlər üzrə Yaxın Şərq Şurasının politoloqu və proqram direktoru Dalia Ganemin izah etdiyi kimi, bu hərəkatları dəstəkləmək "milli psixikada dərin kök salan və Əlcəzairin regional mövqeyini və ittifaqlarını formalaşdıran fundamental məsələ" olaraq qalır.

2017-ci ildə seçki kampaniyası zamanı yeni "siyasi autsayder" Emmanuel Makron Fransanın Əlcəzairdə törətdiyi insanlığa qarşı cinayətlər haqqında danışaraq, məsuliyyət və daha isti münasibətlərin yeni dövrünü vəd edib.

İki il sonra milyonlarla əlcəzairli siyasi dəyişiklik tələbi ilə Afrikanın ən böyük ölkəsində küçələrə çıxıb və yeni prezident seçilib.

Əbdülməcid Tebbun ittihamlara cavab verərək, tarixi saxtalaşdırmağın yolverilməz olduğunu deyib və əlavə edib ki, Fransa lideri "tamamilə mənasız bir şəkildə köhnə münaqişəni canlandırıb".

Əlcəzair səfirini geri çağırıb və Saheldə "terrorla mübarizə əməliyyatları" daxil olmaqla, öz hava məkanını müvəqqəti olaraq Fransız təyyarələri üçün bağlayıb. İndi son mübahisədən sonra hər iki tərəfdə ən yüksək səslər barışıqdan daha çox eskalasiyaya çağırır. Məsələn, fransalı sabiq diplomat deyir: "Əlcəzair ancaq gücü başa düşür. Odur ki, onların kürəyini sığallamaq və dost olduğumuzu söyləmək əbəsdir".

Əlcəzair tərəfində də nə hökumət, nə də əhali güzəştə getmək niyyətində deyil.

Məşhur Əlcəzair yazıçısı Kamal Davudun bu yaxınlarda qeyd etdiyi kimi: "Mən hər dəfə gənc əlcəzairliləri görəndə bir daha əmin oluram ki, onlar Fransaya müstəmləkəçilikdən əziyyət çəkən valideynlərimdən daha çox nifrət edirlər".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***



# Bilmək istəyirəm

*Bir nəfər mənim adıma saxta yolla bankdan 29 min manat kredit alıb. Məhkəmədə aydın oldu ki, həmin şəxs daha 4 nəfərin adına da kredit götürüb. Naxçıvan Şəhər Məhkəməsi sözügedən şəxsə 5 il həbs cəzası müəyyən etdi və o, hazırda həbsdədir. Mənim əməkhaqqımın 90 faizini isə bank hər ay kredit borcu kimi tutur. Bu, nə dərəcədə düzgündür?*

***Yaşar RƏHİMOV,***
***Naxçıvan şəhəri***

✓ - Sualınızda qeyd etdiyiniz təfərrüatlardan məlum olur ki, böyük ehtimalla barəsində danışdığınız şəxs Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) və 320-ci (rəsmi sənədləri saxtalaşdırma, qanunsuz hazırlama) maddələri ilə azadlıqdan məhrumetmə cəzasında məhkum edilmişdir. Bununla belə, nəzərə almaq lazımdır ki, sizin adınıza götürülmüş borc məsələsi ayrıca mülki hüquqi münasibətdir və zərərçəkmiş şəxs olaraq maraqlarınız qorunmalıdır. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən, kredit müqaviləsi həqiqi borcalanla (kredit götürənlə) bank müəssisəsi arasında bağlanır, lakin əgər kredit sizin razılığınız və imzanız olmadan götürülübsə, bu müqavilə yalan əqd hesab olunduğundan etibarsız sayılmalıdır. Belə olan halda siz, müqavilənin etibarsız sayılması üçün məhkəməyə müraciət edə bilərsiniz. Bundan başqa, zərərçəkmiş şəxs olaraq, siz, həmçinin məhkəmədən həmin şəxsə qarşı mülki iddia qaldıraraq zərərin ödənilməsini tələb edə bilərsiniz. Mülki iddianıza məhkum edilmiş şəxs barəsində çıxarılmış qərarı da sübut qismində əlavə etməlisiniz.

*Hazırda xaricdə klinikada təcrübə keçirəm. Çantamı oğurlayıblar və içində pasport, tələbə bileti, şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, bank kartları və digər şəxsi sənədlərim var idi. Belə halda nə etməliyəm?*

***H.MƏDİNƏ***
***Bakı şəhəri***

✓ - Sualınıza cavab olaraq bildiririk ki, qeyd olunan halda siz əvvəl yaşadığınız ölkənin yerli polis orqanına müraciət etməlisiniz. Çantanızın oğurlanması hadisəsi barədə ərizə verin və bununla hadisənin baş verməsini rəsmiləşdirin. Bu sənəd sizə həm ölkəmizin səfirliyində, həm də yeni sənədlərin bərpası zamanı lazım olacaq.

Daha sonra Azərbaycanın diplomatik nümayəndəliyinə (səfirlik və ya yaşadığınız yerdə səfirlik yoxdursa, ən yaxın konsulluğa) müraciət edin. Onlara itirilmiş pasport və digər sənədlərlə bağlı məlumat verin. Belə olan halda sizə "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq, 3 təqvim günü ərzində müvəqqəti qayıdış şəhadətnaməsi veriləcəkdir və bu sənədlə siz vətəndaşı olduğunuz ölkəyə - Azərbaycana qayıda bilərsiniz. Qayıdış şəhadətnaməsi əsasında siz həmin ölkədə olduğunuz müddətdə pasportunuzu bərpa edəcəksiniz. Şəxsiyyət vəsiqənizi isə ölkəyə qayıtdıqdan sonra Azərbaycanda ("ASAN xidmət " mərkəzlərində) bərpa edəcəksiniz. Eyni qayda sizin sürücülük vəsiqənizin bərpası məsələsinə də şamil olunur.

Bank kartlarınıza gəldikdə isə, dərhal müştərisi olduğunuz bankla əlaqə yaradaraq hesablarınızı bloklatmağınız arzuolunandır. Əks halda oğru kartlardan istifadə edə bilər.

Təhsil və tələbə bileti ilə əlaqadar təhsil aldığınız universitetin dekanlığı və beynəlxalq əlaqələr şöbəsinə məlumat verin. Universitet sizi yeni tələbə bileti ilə təmin edəcəkdir. Hər bir halda təcrübə keçdiyiniz klinikaya da məlumat verin ki, şəxsiyyət təsdiqi üçün problem yaranmasın.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Bazar günü üçün hava proqnozu

**Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 14-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Əsasən günün birinci yarısında yarımadanın bəzi yerlərində leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 17-20, gündüz 20-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu, nisbi rütubət isə 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 15-19, gündüz 20-25, dağlarda gecə 4-7, gündüz 7-12 dərəcə isti olacaq.



## ALLAH RƏHMƏT ELƏSİN!

Mirqiyas Kazımov, Rahib Qarayev, Ələddin Məmmədov, Vaqif Məhərrəmov, Hikmət Quliyev, Vaqif və Rafiq Hüseynovlar, Azər Baxışov, Famil Balayev, Əlövsət Əliyev və Hidayət İsmayılov dostları İxtiyar Qafarova əzizi

**QARDAŞXAN CƏBRAYIL OĞLU NƏCƏFOVUN**

Beyləqan rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4099
Sifariş 1854

Qiyməti 60 qəpik